# Pakistanda yeni baş nazir seçilib



**"Pakistan Müsəlman Liqası - Nəvaz" partiyasının sədri Şahbaz Şərif ölkənin yeni baş naziri seçilib. Trend-in məlumatına görə, o, Pakistan parlamentinin bugünkü iclasında baş nazir vəzifəsinə seçilib.**

Qeyd edək ki, bir neçə gün əvvəl Pakistan parlamenti sabiq baş nazir İmran Xanı etmiadsızlıq səsverməsi nəticəsində istefaya göndərmişdi. Parlamentin bugünkü iclasında İ.Xanın "Təhrik-i İnsaf" partiyası səsverməni boykot edərək kütləvi şəkildə istefa verdiklərini açıqlayıb.

*Xatırladaq ki, Ş.Şərifin qardaşı Nəvaz Şərif 1990-93, 1997-99 və 2013-2017-ci illərdə Pakistanın baş naziri olub.*



# Türkiyədə zəlzələ olub

## Təkanlar İstanbulda da hiss edilib

**Türkiyədə 4,4 bal gücündə zəlzələ olub.**

APA "Milliyət" qəzetinə istinadən xəbər verir ki, təbiət hadisəsi Qara dənizin Zonguldak sahillərində 4,4 bala qədər hiss olunub.

Zəlzələ İstanbulda da hiss edilib.


№ 62 (5584), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 aprel 2022-ci il (çərşənbə axşamı)





# Bakı-Şuşa marşrutu üzrə aprel ayı üçün bütün biletlər satılıb

**Bakı-Şuşa müntəzəm avtobus reysinə aprel ayına olan biletlərin hamısı satılıb.**

Şuşaya getmək üçün mayı gözləmək istəməyənlər Füzuli rayonunun Əhmədbəyli qəsəbəsindən təşkil olunan Əhmədbəyli-Şuşa-Əhmədbəyli marşrutu ilə yerinə yetirilən avtobus reyslərindən istifadə edə bilərlər.

Qeyd edək ki, sərnişinlər biletləri "Yolumuz Qarabağa" portalı (www.yolumuzqarabaga.az) vasitəsilə onlayn qaydada ala bilərlər.

*Şuşa və Ağdama ilk müntəzəm avtobus marşrutları yanvarın 24-də istifadəyə verilib.*



# Avropa İttifaqı danışıqları dəstəkləyib

## Azərbaycanla Ermənistan arasında birbaşa təmaslar qurulur

**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında dünən baş tutan telefon danışığını müsbət qiymətləndirib.**

Toyvo Klaar bu barədə özünün tviter hesabında yazıb.

"Ötən həftə Brüssel görüşündən sonra mühüm inkişaf. Avropa İttifaqı birbaşa təmasları və əlaqəni dəstəkləyir", - Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi sosial şəbəkə hesabında yazıb. O, həmçinin Ceyhun Bayramovun Ermənistanın xarici işlər naziri ilə danışığəna dair tviter paylaşımını da paylaşıb.

# Rusiya Mariupolda kimyəvi silah tətbiq edib



**Rusiya hərbçiləri Ukraynanın Donetsk vilayətinin Mariupol şəhərində hərbçilərə və mülki şəxslərə qarşı naməlum zəhərli maddədən istifadə ediblər.**

"Report" UNİAN-a istinadən xəbər verir ki, bu barədə Ukraynanın "Azov" alayı teleqramda xəbər verib.

Qeyd edilir ki, Mariupolda drondan zəhərli maddə atılıb.

Məlumata görə, zərərçəkənlərdə tənəffüs çatışmazlığı və digər əlamətlər var. "Diqqət! Təxminən bir saat əvvəl Rusiya işğalçı qüvvələri Mariupol şəhərində ukraynalı hərbçilərə və dinc sakinlərə qarşı düşmən PUA-sından atılmaqla mənşəyi naməlum zəhərli maddədən istifadə edib", - "Azov"un xəbərində deyilir.

# Rusiya iqtisadiyyatı çökdü

## Rusiya xarici borcu üzrə defolt elan edib




**Rusiya istiqraz sahiblərinə dollar ödənişləri əvəzinə rubl ödənişləri təklif edərək xarici borcu üzrə faktiki olaraq defolt elan edib.**

"CNN Business" xəbər verir ki, bu barədə "Standard & Poor's" reytinq agentliyi xəbər yayıb.

Agentliyin məlumatına əsasən, Rusiya aprelin 4-də ödəniləcək dollarlıq iki istiqraz üzrə ödənişi rublla etməyə çalışıb, bu isə "seçilmiş defolt"a bərabərdir.

Agentlik bildirir ki, seçilmiş defolt bütün borc üzrə deyil, konkret öhdəliklərin yerinə yetirilməməsinə görə elan edilir.

Qeyd edilir ki, Moskvanın kapital və faizlərin ödənilməsi üçün aprelin 4-dən 30 günlük güzəşt müddəti var. Lakin "Standard & Poor's" Qərbin Rusiyaya qarşı sanksiyalarını nəzərə alaraq dollara konvertasiyanı gözləmir.


(səh.3)


# XİN başçılarının telefon danışığı baş tutub

## Ceyhun Bayramov Mirzoyanla sülh sazişinin hazırlanmasını müzakirə edib




**11 aprel 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan ilə telefon danışığı baş tutub.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Tərəflər, iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq, gələcək sülh sazişinin hazırlanması üzrə iş, Birgə Sərhəd Komissiyasının təşkili, habelə humanitar məsələlər üzrə fikir mübadiləsi aparıblar.


(səh.3)




# Arestoviç: Putin gedəcək, lakin müharibə bitməyəcək

**Yaxın 10-13 il ərzində Rusiya ilə təkrar toqquşmalar mümkündür.**

Axar.az əbər verir ki, bunu Ukrayna Prezident Ofisi rəhbərinin müşaviri Aleksey Arestoviç deyib. O bildirib ki, Rusiyada hakimiyyət dəyişikliyi imkanları da nəzərdən keçirilir, lakin bu, Ukrayna ilə qarşıdurmanın sona çatmasına gətirib çıxarmayacaq:

"Əlbəttə, hər şey ola bilər, hansısa liberal gələ bilər... Putin getdi, oliqarxlar liberalı seçdi. Sonra informasiya, iqtisadi, kəşfiyyat rəqabəti olacaq. Həm də hərbi, amma birbaşa müharibə olmadan. Bu sivilizasiya mübarizəsi dəhşətlidir".

# Daha 16 nəfər koronavirusa yoluxub, ölən yoxdur

## 19 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 16 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlardan ölən yoxdur.

İndiyədək ölkədə ümumilikdə 792 253 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 782 351 nəfər müalicə olunaraq sağalıb, 9 703 nəfər vəfat edib. 199 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 624, bu günə qədər isə ümumilikdə 6 746 085 test icra olunub.

# ÜST: Pandemiyanın bitməsindən danışmaq hələ tezdir



**Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri bildirib ki, koronavirus pandemiyasının bitməsindən danışmaq hələ tezdir.**

APA TASS-a istinadən xəbər verir ki, təşkilat rəhbəri Tedros Adhanom Qebreyesus bildirib ki, yoluxma sayı yüksək olaraq qalır.

Onun sözlərinə görə, bir çox ölkələrdə peyvəndlənmə göstəricisi çox aşağıdır.

"Dünyada ölüm hallarının azalması tendensiyası müşahidə olunsa da pandemiya hələ də davam edir. Xəstəliyin yoluxuculuq riski hələ yüksək olaraq qalır. Pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması infeksiyaların yayılmasına imkan verir",- deyə Qebreyesus bildirib.

*Baş direktorun əsas narahatlığı dünyada peyvənd olunmamış tibb işçilərinin və digər risk qrupunda olan insanların sayının davam etməsidir.*

# Anti-terror əməliyyatlarına ciddi hazırlıqlar gedir

Əziz Əlibəyli: "Coğrafi üstünlüklərin fəth olunması və təminat yollarının nəzarət altına alınması uğurla davam etdirilir"


(səh.4)




# "Fərruxda toplu məzarlığın aşkarlanması təsadüfi deyil"

Aygün Həsənoğlu: "Çox yerdə belə məzarlar ortaya çıxacaq"


(səh.5)




# Bu inkişafın adı Zəfərdir

## Azərbaycan Prezidenti İlham Əliyev xalqı ilə birlikdə böyük uğurlara imza atıb



### Son 4 ildə Azərbaycanın geo-siyasi və geo-iqtisadi mövqeyi də kəskin şəkildə güclənib

**11 apreldə xalqın böyük etimadı ilə Cənab İlham Əliyevin Prezident seçilməsinin dördüncü ili tamam olur. Yola saldığımız son 4 il ölkəmizin və xalqımızın həyatında unudulmaz hadisələrlə zəngin olub. Dövlət başçısı İlham Əliyev Azərbaycanın iqtisadi inkişafı və regionun lider dövlətinə çevrilməsi istiqamətində həqiqətən də olduqca uğurlu və effektiv siyasət yürüdüb.**

Bu illər ərzində aparılan quruculuq işləri və əldə edilən uğurlu nəticələr Azərbaycanı dünyada daha çox tanıdıb. Prezident andiçmə mərasimində Azərbaycanın geniş islahatlar dönəminə qədəm qoyduğunun anonsunu vermişdi. Son dörd il islahatlar dövrü kimi yadda qaldı və islahatlar hakimiyyətin bütün qollarını əhatə etdi. Geniş struktur islahatları həyata keçirilməklə dövlət strukturunda çalışanların tərkibi gəncləşdirildi. Ölkəmizdə korrupsiyaya qarşı tədbirlər dərinləşdi və iqtisadiyyatın şəffaflaşdırılması istiqamətində daha ciddi addımlar atıldı. Təbii ki, görülmüş işlərin əhatə dairəsinin genişlənməsi və əldə etdiyimiz iqtisadi uğurlar dünyanı sınağa çəkmiş qlobal pandemiyaya qarşı uğurla mübarizə aparmağımıza yol açdı. Cənab Prezidentin rəhbərlik etdiyi son dörd ildə Azərbaycana dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edilməsinə etimad göstərildi. Azərbaycanın sədrliyi Qoşulmama Hərəkatının işinə yeni impuls verdi. Dünyanı narahat edən məsələlərin həll edilməsinə verdiyi töhfələri ilə yeni bir imic formalaşdırdı. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində Qlobal Pandemiyaya qarşı mübarizədə həmrəyliyin göstərilməsi və vaksin millətçiliyinə yol verilməməsi ilə əlaqədar BMT-yə Xüsusi Sessiyasının keçirilməsi ilə bağlı müraciət etdi. Məhz müraciətimiz sayəsində BMT-nin xüsusi sessiyası keçirildi və dünya üçün mühüm qərarlar qəbul olundu. Prezidentin rəhbərliyi altında Azərbaycan iqtisadi müstəqilliyinə qovuşdu və bu da siyasi müstəqilliyimizin təminatçısı oldu. Azərbaycanın artan iqtisadi gücü, ölkədəki milli həmrəylik, beynəlxalq arenadakı ədalətli mövqeyi və qazandığı nüfuzu 30 il erməni işğalı altında qalmış torpaqlarımızın işğaldan azad etməyimizə yol açdı. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan əsgərinin 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyi döyüş taktikası dünya hərb sahəsi üçün bir yenilik oldu. Müharibə dövründə və postmüharibə dönəmində Prezident İlham Əliyevin xarici və daxili media nümayəndələrinə verdiyi çox məntiqli və tarixi faktlara əsaslanmış müsahibələri informasiya müharibəsində də Azərbaycanı qalib ölkəyə çevirdi.

**Millət vəkili, iqtisadçı Vüqar Bayramov bəyan edib ki, ötən 4 il də Azərbaycan tarixinə xüsusi dövr kimi daxil olub. Deputatın sözlərinə görə, 2018-ci ildən başlayaraq Azərbaycanda yeni sosial paketlərin tətbiqinə başlanılıb:** ”Ötən müddətdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırıldı. Bu il minimum əmək haqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu 43 faiz üstələyəcək. Xalis minimum əmək haqqının orta aylıq əmək haqqındakı payında da ötən müddətdə artımlar qeydə alındı. Həmin nisbət 2018-ci ildəki 26 faizdən 2022-ci ildə 40 faiz səviyyəsinə yüksələcək. Bu müddətdə minimum pensiya məbləği 2,2 dəfə artırılaraq 110 manatdan 240 manata çatıb. Təbii ki, bu islahatlar əvvəlki illərdə həyata keçirilən iqtisadi siyasətin nəticəsində mümkün oldu. Son 4 ildə Azərbaycanın geo-siyasi və geo-iqtisadi mövqeyi də kəskin şəkildə güclənib. Çoxsahəli xarici siyasət 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin daha da möhkəmlənməsinə gətirib çıxardı. Rusiya-Ukrayna müharibəsi fonunda yaranan yeni düzən və reallıq kontekstində bu, daha da aydın müşahidə olunmaqdadır. Brüsseldə keçirilən son görüş və əldə olunan razılaşmalar bunu bir daha təsdiq etdi. Azərbaycan hər zaman Avropa İttifaqı daxil olmaqla beynəlxaq təşkilatlar ilə əməkdaşlığın güclənməsinə önəm verir. Etiraf etmək lazımdır ki, Avropa İttifaqı Azərbaycan Prezidenti ilə yaxın təmasları, mütəmadi telefon danışıqları və rəsmi dialoqların təşkil edilməsini Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür”.

**Parlament üzvü qeyd edib ki, 2022-2026-cı illər əhatə edəcək yeni iqtisadi strategiya bu sahədə islahatların dərinləşməsinə xidmət edəcək:** ”Əsas milli prioritetlər üzrə Azərbaycan iqtisadiyyatında diversifikasiyanın genişlənəcəyi gözlənilir. ”Böyük Qayıdış” proqramı dayanıqlı iqtisadi nəticələri daha da möhkəmləndirəcək. Həm dünyada, həm də regionda yeni düzən formalaşır. Əminik ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu dövrdə də yeni uğurlara imza atacaq”.

**İsmayıl Qocayev**



# Proqramlar uğurla icra olunur

## Şəhid ailələri və müharibə əlilləri daim Prezidentin qayğısı ilə əhatələnib

**Prezident İlham Əliyev daim şəhid ailələri və müharibə əlillərini xüsusi qayğı ilə əhatə edib. Dövlət başçısının fərman və sərəncamları ilə həmin kateqoriyadan olanların sosial təminatı mütəmadi gücləndirilib. Sosial ödənişlərin də son 4 ildə ardıcıl şəkildə artırılması təmin edilib. Eyni zamanda, Prezident İlham Əliyevin göstərişi ilə həmin kateqoriyadan olanların mənzillə təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib.**

Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onlara 3 min mənzil, ümumilikdə ötən dövrdə 12500-dən çox mənzil və ya fərdi ev verilib. Mənzillə təminat proqramı Vətən müharibəsi qəhrəmanları, digər həssas qruplardan olanları (gözdən əlilliyi olanlar, dövlət uşaq müəssisələrinin məzunları) da əhatə edib. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Abşeron rayonunda yaşayış binaları inşa etdirilərək dövlət uşaq müəssisələrinin məzunlarına verilib. Həmin binalarda 365 məzun evlə təmin olunub. Həmin proses son illərdə müxtəlif ərazilərdəki yeni yaşayış komplekslərində də həyata keçirilir. Bu da sosial proqramların əhatə dairəsinin daha da genişləndiyini göstərir.

Bu 4 ildə daha 1450-dək müharibə əlili minik avtomobili ilə təmin edilib. Onların sayı 7400-ə çatıb. Bundan başqa, qeyd edək ki, həssas qruplarla bağlı yeni sosial dəstək proqramları həyata keçirilib. Prezident İlham Əliyevin 2018-ci ilin aprelində dövlət başçısı seçildikdən sonra ilk imzaladığı Fərman məhz şəhid ailələri ilə bağlı olub. Bu da ölkə rəhbərinin vətəndaşlarına qarşı xüsusi həssaslığını bildirir.

Cənab Prezidentin həmin Fərmanı ilə şəhid ailələri barədə daha bir sosial dəstək layihəsi hazırlanıb. 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olan hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının - 12 min şəhidin 18 mindən çox vərəsəsinə 11 min manat birdəfəlik ödəmə verilməsi proqramı uğurla icra edilib.

Dövlət başçısının 2021-ci ilin dekabr ayında imzaladığı Fərmanla isə daha bir mühüm sosial proqramın icrasına hazırlıq işləri aparılır: 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralanaraq əlilliyi müəyyən edilən şəxslərə və onlardan vəfat edənlərin ailə üzvlərinə də yaxın vaxtlarda birdəfəlik ödəmə verilməsinə başlanacaq.

Eyni zamanda, Prezident İlham Əliyevin tapşırığı ilə bu ilin ilk rübündə 44 günlük Vətən müharibəsi iştirakçıları ilə bağlı da sosial dəstək proqramına başlanılıb və uğurla icra edilib: ”Müharibə veteranı” adı verilən şəxslərə Prezidentin aylıq təqaüdünün təyinatı prosesi həyata keçirilib.

**Prezidentin sosial təminat və dəstəklə bağlı addımlarını müsbət dəyərləndirən iqtisadçı-eskpert Fuad İbrahimov ”Şərq”ə bildirib ki, normal cəmiyyətdə bunlar olmalıdır:** ”Torpaqlarımızın azadlığı uğrunda qanını və canını qurban verən soydaşlarımız daim nəzərdə saxlanılmalıdır. Əlbəttə ki, təkcə hökumətin yox, istənilən vətəndaşın onlara borcu var. Bu qəbildən olan şəxslərin ailələrinə hörmət göstərilməli, ruhlarını şad etməliyik. Bununla bağlı tədbirlər cənab Prezident tərəfindən mərhələli şəkildə həyata keçirilir”.

F.İbrahimov vurğulayıb ki, bahalaşma dövründə sosial yönümlü addımların atılması vacibdir:

”Dünyada ərzaq məhsulları və xidmətlərin qiyməti artır. Eləcə də, Azərbaycanda bu hal müşahidə olunur. Kommunal xərclərdə bahalaşma özünü büruzə verir. Həmin nöqteyi-nəzərdən ölkə rəhbəri sosial dəstək proqramlarını maksimal şəkildə diqqətdə saxlayır. Paketlərin artırılması ilə bağlı hökumət layihələr hazırlayıb təqdim edir, cənab Prezident də imzalayır. Bu addımları müsbət qarşılayıram”.

İqtisadçı mövzu ilə bağlı son fikirlərini qeyd edib: ”Bir şeyi də nəzərə almaq lazımdır ki, bütün proseslər günün tələblərinə uyğun getməlidir. Ən azından xərclə gəlir arasındakı fərq gəlirin nisbətində olsa, daha yaxşı olar”.

**Cəmilə Əzim**

# XİN başçılarının telefon danışığı baş tutub

## Ceyhun Bayramov Mirzoyanla sülh sazişinin hazırlanmasını müzakirə edib

**11 aprel 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan ilə telefon danışığı baş tutub.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Tərəflər, iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq, gələcək sülh sazişinin hazırlanması üzrə iş, Birgə Sərhəd Komissiyasının təşkili, habelə humanitar məsələlər üzrə fikir mübadiləsi aparıblar.




“Artıq nazirlər münasibət yaratsa, bölgədə üçüncü tərəf iki ölkənin münaqişəsindən təxribat üçün yararlanmazlar”

**Mövzu ilə bağlı ”Şərq”ə danışan politoloq Turab Rzayev bildirib ki, Azərbaycan XİN başçısı ilə Ermənistanlı həmkarının birbaşa əlaqə yaratması çox müsbət haldır:**

”İki ölkə arasında təmaslar yaranıb. Daha çox Rusiya, son dönəmlər isə Avropa İttifaqı ( Aİ ) vasitəsilə təmaslar reallaşdırılırdı. Üçüncü tərəfin müdaxiləsi zamanı irəliləmə hiss etmirdik. Aİ-nin moderatorluğu ilə baş tutan görüşlər uğurludur. Əvvəlcə Zəngəzur dəhlizi ilə dəmiryolu, indiki görüşdə isə sərhədlərin müəyyənləşməsi məsələləri sülh prosesinə aparan yolun başlanğıcıdır. Ən azından hər iki tərəfin Xarici İşlər Nazirlikləri sülh kommisiyasının yaradılması qərarına gəlib. Artıq nazirlər münasibət yaratsa, bölgədə üçüncü tərəf iki ölkənin münaqişəsindən təxribat üçün yararlanmazlar. Ermənistanın yeganə nicat yolu Türkiyə və Azərbaycanla barışıb, sülh, əmin-amanlıq, iqtisadi əlaqələri bərpasıyla mehriban yaşamaqdır. Ermənistanın konstruktiv mövqeyə gəlməsi, nazirlərin telefonla danışacaq qədər əlaqələrin normallaşması gələcəkdə hər iki ölkənin Atlantik məkana, Avropa iqtisadi məkanına rahat inteqrasıyasına şərait yaradacaq. Erməni və Azərbaycan xalqının gələcəyi və rifahına görə ümid vəd edir. Gərək, Ermənistan onları Azərbaycan əleyhinə qızışdıran xarici qüvvələri tələsinə düşməsin. Azərbaycan və Türkiyə ilə mehriban qonşuluq münasibətləri qurmağa çalışsın”.

**Aygün Tahir**

# Rusiya iqtisadiyyatı çökdü

## Rusiya xarici borcu üzrə defolt elan edib

**Rusiya istiqraz sahiblərinə dollar ödənişləri əvəzinə rubl ödənişləri təklif edərək xarici borcu üzrə faktiki olaraq defolt elan edib.**




Trend ”CNN Business”ə istinadən xəbər verir ki, bu barədə ”Standard & Poor's” reytinq agentliyi xəbər yayıb.

Agentliyin məlumatına əsasən, Rusiya aprelin 4-də ödəniləcək dollarlıq iki istiqraz üzrə ödənişi rublla etməyə çalışıb, bu isə ”seçilmiş defolt”a bərabərdir.

Agentlik bildirir ki, seçilmiş defolt bütün borc üzrə deyil, konkret öhdəliklərin yerinə yetirilməməsinə görə elan edilir.

Qeyd edilir ki, Moskvanın kapital və faizlərin ödənilməsi üçün aprelin 4-dən 30 günlük güzəşt müddəti var. Lakin ”Standard & Poor's” Qərbin Rusiyaya qarşı sanksiyalarını nəzərə alaraq dollara konvertasiyanı gözləmir.

Bəs defolt nə deməkdir?

Defolt - borclunun borcun ödənilməsi ilə bağlı öhdəlikləri icra etməməsidir.

Həm əsas borc məbləği, həm də faizlər üzrə. Fiziki şəxsin və ya şirkətin defolt elan etməsindən sonra onun iflas proseduru başlayır, borcun qismən və ya tam silinməsi, yaxud qaytarılması prosedurlarına start verilir.

*Dövlət isə daxili və xarici kreditorlar qarşısında öhdəliklərini vaxtında yerinə yetirə bilməyəndə defolt yaranır.*

*Dövlətin defolt olması onun kredit reytinqini aşağı salır, ölkə yeni kreditlər ala bilmir və nəticədə iqtisadiyyata kənar kapitalın yatırılması inkişafı dayandırır.*

*Hazırda Rusiyanın dövlət borcu 20,9 trilyon rubl və ya ölkənin ümumdaxili məhsulunun 18,1 faizini təşkil edir.*

*Valyutada isə xarici borc 478,2 milyard dollardır.*

*Qərbin Rusiyaya qarşı tətbiq etdiyi ağır sanksiyalar ilkin real nəticəsini verdi.*

*Rusiya iqtisadiyyatını daha ağır günlər gözləyir.*

**”Ermənistan XİN-in növbəti əsassız, hüquqa zidd, düşmənçilik dolu bəyanatını rədd edir, iki dövlət arasında normallaşma addımlarının atılması qərarları verildiyi bir vaxtda Ermənistan tərəfinin dağıdıcı mövqeyini qətiyyətlə qınayırıq”.**



# Ermənistanın Azərbaycanı ittiham etməyə heç bir haqqı yoxdur

## **Sahib Alıyev:** ”Biz Qarabağda etnik təmizləmə aparmırıq. Rusiya hərbi kontingentinin müvəqqəti nəzarətində olan hissəsində yaşayanları separatçı-terrorçu ünsürlərin zülmündən qurtarmağa çalışırıq”

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan XİN-in 10 aprel 2022-ci il tarixli bəyanatına dair şərhində deyilib. Azərbaycan Xarici İşlər Nazirliyindən vurğulanıb ki, bir milyona yaxın azərbaycanlını etnik təmizləməyə məruz qoyaraq, bu insanların 30 ilə yaxın fundamental hüquqlarını kobudcasına pozan, 4000-ə yaxın azərbaycanlının taleyi ilə bağlı cavabdehlik daşıyan Ermənistan tərəfi heç bir əsasla kütləvi qətldən, etnik təmizləmədən danışa bilməz: ”Ermənistan XİN-in Azərbaycan ərazisində separatçılığı təşviq edən, beynəlxalq hüquqa zidd olaraq digər dövlətin daxili işlərinə müdaxilə olan, bölgədə sülh quruculuğu səylərinə xələl gətirən bəyanatları qarşı tərəfin əsl niyyətinin normallaşma və sülh şəraitində birgə yaşayış olmadığını nümayiş etdirir. Ermənistanın seçimindən asılı olmayaraq, Azərbaycan öhdəlikərinə və beynəlxalq hüquqa uyğun olaraq addımlarını atacaq”.

Qeyd edək ki, Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan Moskvadan həmkarı Sergey Lavrovla məsləhətləşmələrdən dönər-dönməz onun rəhbərlik etdiyi qurum Brüssel görüşündə ölkəsinin üzərinə götürdüyü öhdəliklə daban-dabana zidd açıqlama yayıb. Ermənistan XİN-in yaydığı açıqlamada Azərbaycanın Rusiya hərbi kontingentinin müvəqqəti nəzarətində olan hissəsində ”psixoloji terrora” əl atdığı, ”humanitar böhran” yaratdığı və ordumuzun öz mövqelərini irəli çəkdiyi bildirilib.

**Millət vəkili Sahib Alıyev bildirib ki, Xarici İşlər Nazirliyinin də vurğuladığı kimi ”hərbi cinayətlər, soyqırımları törədən Ermənistanın Azərbaycanı ittiham etməyə nə haqqı, nə əsası var:** ”Azərbaycan ardıcıl olaraq yeritdikləri siyasət nəticəsində monoetnikləşən Ermənistan deyil və heç vaxt da olmayacaq. Biz Qarabağda etnik təmizləmə aparmırıq. Rusiya hərbi kontingentinin müvəqqəti nəzarətində olan hissəsində yaşayanları separatçı-terrorçu ünsürlərin zülmündən qurtarmağa çalışırıq. Onların çoxmillətli, çoxkonfenssiyalı cəmiyyətimizə reinteqrasiyasına cəhd göstəririk. Bunu da edəcəyik. Həm də ona görə edəcəyik ki, ermənilər Azərbaycanda kompakt şəkildə yaşadıqları kimi azərbaycanlılar da indi Ermənistan adlandırılan dədə-baba torpaqlarına qayıtmalıdırlar!”.

**İsmayıl**





# BDU-nun jurnalistika fakültəsi üçün geniş imkanlar açılır

## Üç qurum arasında geniş, əhatəli əməkdaşlıq fəaliyyəti nəzərdə tutulub

İsmayıl Qocayev

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və Audiovizual Şuranın sədri İsmət Səttarov ötən həftə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində olublar.**

Görüşdə universitetin Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor Əliş Ağamirzəyev, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və professor-müəllim heyəti iştirak edib. Əvvəlcə Jurnalistika fakültəsinin Tədris-teleradio studiyasına baxış keçirilib. Radio və televiziya studiyaları, efir və montaj otaqları, audiovizual studiyaların fəaliyyəti və BDU TV internet kanalının işi ilə tanışlıq olub. Audiovizual Şuranın sədri İsmət Səttarov studiyanın praktik imkanlarından və yaradıcı mühitdən məmnunluğunu ifadə edərək müştərək layihələrin həyata keçirilməsini təklif edib. Bildirilib ki, Tədris tele-radio studiyasının maddi-texniki potensialı əsasında müxtəlif formatlı proqramların hazırlanması mümkündür. Ölkənin radio və televiziya kanalları ilə əməkdaşlıq perspektivli layihələrin reallaşmasına imkan verəcək. Üçtərəfli əməkdaşlıq imkanlarını yüksək qiymətləndirən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov tələbələrin praktik fəaliyyətinin stimullaşdırılmasından danışıb. Gələcəkdə MEDİA Agentliyinin dəstəyi ilə Jurnalistika fakültəsinin tələbələri üçün müsabiqələrin, treninqlərin və müxtəlif praktik seminarların təşkili barədə fikirlərini bildirib. BDU-nun prorektoru Əliş Ağamirzəyev və Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev əməkdaşlığın jurnalist kadrların yetişdirilməsi istiqamətində faydalı nəticələr verəcəyinə əmin olduqlarını ifadə ediblər.

**Mühüm görüşlə bağlı "Şərq"ə danışan Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu deyib ki, müzakirələr nəticəsində Medianın İnkişaf Agentliyi, Audiovizual Şura və BDU arasında üçtərəfli müqavilənin bağlanması nəzərdə tutulub.** V.Ziferoğlunun sözlərinə görə, müqavilənin məqsədi BDU-nun Jurnalistika fakültəsi ilə mediamızla bağlı iki mühüm təsisatın əməkdaşlığının daha da genişləndirilməsidir: "Başlıca məqsəd sıx əməkdaşlığın qurulması, eyni zamanda həm tədris, həm də praktik fəaliyyətdə qarşılıqlı əlaqələrin yaradılması və sıxlaşdırılmasıdır. Ən önəmli məqam budur. İstər tələbələr, istərsə də müəllimlərlə bağlı bir çox maraqlı əməkdaşlıq formaları nəzərdən keçiririk. Əməkdaşlıq həm təlimlər, həm də praktik-təcrübi formalarda olacaq. Müştərək layihələrin icra edilməsində bir sıra maraqlı məqamlar öz əksini tapacaq. Üç qurum arasında geniş, əhatəli əməkdaşlıq fəaliyyəti nəzərdə tutulub. Təbii ki, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi üçün çox geniş imkanlar açılacaq. Perspektivdə jurnalistika tələbələrinin işlə təmin olunmasından tutmuş praktik vərdişlərə yiyələnmələrinə kimi müxtəlif formatlarda əməkdaşlıq mümkündür".

# "TEKNOFEST Azərbaycan" çərçivəsində keçiriləcək "Smart Qarabağ" Hakatonuna qeydiyyat başa çatdı

**Qarabağın dirçəliş proqramına töhfə vermək istəyən 188 proqramçı və texnologiya həvəskarı "Ağıllı şəhər" konsepsiyası üzrə təşkil olunacaq yarışmaya qatılacaq.**




Məlumat üçün bildiririk ki, Türkiyə Teknoloji Takımı Vakfı (T3 Vakfı), Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı ilə bu ilin 26-29 may tarixlərində Bakıda ilk dəfə olaraq keçiriləcək "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalına hazırlıq çərçivəsində "Smart Qarabağ" Hakatonuna qeydiyyat yekunlaşıb.

Azərbaycandan ümumilikdə 131 nəfər beynəlxalq tədbirdə iştirak etmək üçün qeydiyyatdan keçib. Bununla yanaşı, "Smart Qarabağ" Hakatonunda iştirakla bağlı Türkiyə Respublikasından 57 müraciət daxil olub.

Münsiflər heyəti daxil olmuş 188 müraciəti tədbirin şərtləri çərçivəsində qiymətləndirərək növbəti mərhələyə keçid alan iştirakçıları təyin edəcəklər.

*Qeyd edək ki, "Əşyaların interneti", "Süni zəka", "Maşın öyrənilməsi", "Bulud" və digər aparıcı texnologiyaları özündə cəmləşdirən "Ağıllı şəhər" konsepsiyası üzrə keçiriləcək "Smart Qarabağ" Hakatonu təhsil, nəqliyyat, kənd və ev təsərrüfatı, enerji və su sərfiyyatı, ətraf mühit və təhlükəsizlik sahələrini əhatə edir.*

# "Azərbaycan tarixində Türk Albaniya"




**Azərbaycan "Türk Ocağı" Mirzə Bala Məmmədzadənin kitabını çap etdirdi.**

Azərbaycan "Türk Ocağı" İctimai Birliyinin təşəbbüsü ilə milli azadlıq hərəkatı mücahidi, ictimai-siyasi fikir tariximizin nəhənglərindən Mirzə Bala Məmmədzadənin "Azərbaycan tarixində Türk Albaniya" əsəri çap olunub. 1951-ci ildə Ankarada nəşr edilən M.B.Məmmədzadənin bu əsəri Azərbaycan "Türk Ocağı"nın sədri, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlının giriş, filologiya üzrə fəlsəfə doktoru Aydın Qasımlının ön sözüylə işıq üzü görüb. 300 tirajla çap olunan əsəri Azərbaycan türkcəsinə jurnalist-araşdırmaçı Sərxan Carçı uyğunlaşdırıb. Azərbaycanın qədim dövlətçilik tarixini əhatə edən, müxtəlif mənbələrə istinadən yazılan kitab bu gün də aktuallığını, elmi dəyərini qoruyub saxlayır. Alban tarixşünaslığını, irsini mənimsəməyə çalışan erməni və bəzi qafqazdilli xalqların iddialarının əksinə, Albaniyada aparıcı etnik soy-kökün türklərə məxsusluğunu isbatlayan "Azərbaycan tarixində Türk Albaniya" əsəri tarixin qaranlıq mərhələlərinə işıq salır. Albaniyanın təşəkkülü, siyasi-tarixi coğrafiyası, etnik tərkibi bu əsərdə tarixi mənbələrə söykənərək araşdırılıb. Təəssüf ki, Azərbaycan tarixçiləri, albanşünasları bu qiymətli məxəzdən yetərincə yararlanmayıb, tədqiqatlarında faktlardan istifadəni üstün hesab etməyiblər.

Azərbaycan "Türk Ocağı"nın ilk kitab layihəsi olan "Azərbaycan tarixində Türk Albaniya" əsərinin maraqla qarşılanacağı şübhəsizdir. Yaxın günlərdə kitabın təqdimat mərasimin keçiriləcəyi planlaşdırılıb.

**Günəş Mərd**




# Makronun ikinci turda qalib gəlmək şansı böyükdür

## Artıq Avropa məkanında da xanım Marin Le Penin məğlub olması arzulanır

İsmayıl Qocayev

**Fransada prezident seçkilərinin birinci turunun ilkin rəsmi nəticələri açıqlanıb. Nəticələrə görə, Prezident Emmanuel Makron ilk turdan sonra seçicilərin 27,6 faiz səsini qazanıb. İkinci yerdə 23,41 faiz səslə Marin Le Pen qərarlaşıb. Fransanın sağ mərkəzçi "Respublikaçılar Partiyası"ndan prezidentliyə namizədi Valeri Pekress seçkidə məğlub olduğunu etiraf edib. Pekress seçkilərin ilk turunda 5,1 faiz səslə beşinci olub.**

O, seçkilərin ikinci turunda tərəfdarlarını Makrona səs verməyə çağırıb. Fransızlar dövlət başçısını beş il müddətinə seçirlər. Namizədlərdən heç biri birinci turda mütləq səs çoxluğu əldə etmədikdə, ikinci tur keçirilir. Seçkinin ikinci tur aprelin 24-nə planlaşdırılıb. Digər namizədlərin ilk turda məğlub olmaları növbəti turun iki namizəd - Makron-Li Pen arasında baş tutacağını, kəskin mübarizənin aparılacağı təsəvvürünü yaratmaqdadır. Fransa daha çox ermənipərəst mövqe nümayiş etdirir. Ona görə də kimin qalib olacağından asılı olmayaraq, sonrakı proseslərin hansı istiqamətdə cərəyan edəcəyi bəzi sualları doğurur. Xatırladaq ki, məhz Makronun prezidentliyi dövründə Fransa Türkiyə ilə sərt rəqabətə, hətta diplomatik konfrontasiyaya getdi. Buna səbəb Liviya, Qarabağ və Aralıq dənizi kimi məsələlər idi. Siyasi-diplomatik rəqabətlər nəticəsində fransız-türk münasibətləri daha da pisləşdi. Maraqlısı odur ki, Makronun prezidentliyinin sonlarına yaxın iki ölkə arasında müəyyən istiləşmələr başlanıldı. Bu, Ukrayna olayları ilə bağlıdır. Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlaması Ankaranın vasitəçi qismində öz fəaliyyətini təklif etməsi Parisi də bu addımı atmağa vadar etdi. Nəticədə Rəcəb Tayyib Ərdoğan və Emmanuel Makron Ukraynanın Mariupol şəhərində humanitar böhranla bağlı çətin vəziyyətdə qalmış dinc əhalinin təhlükəsiz yerlərə çıxarılmaları barədə razılaşmalar əldə etdilər. Ancaq bu razılaşmanın da əldə edilməsində Makronun deyil, məhz Ərdoğanın nüfuzu rol oynadı. Bu baxımdan əgər Makron öz prezidentlik kürsüsünü mühafizə edə bilsə onun yeni prezidentliyi dövründə Fransa-Türkiyə münasibətlərində yeni səhifə açıla bilər. O cümlədən, Parisin açıq ermənipərəst çıxışları da dondurular. Təbii ki, belə olan halda Azərbaycanın da səmərə alacağını demək mümkündür. Makronun rəqibi, sağçı Le Pen antitürk və antiislam ritorikaları ilə yadda qalıb. Xanım namizədin prezident seçiləcəyi təqdirdə fransız-türk, o cümlədən Paris-Bakı münasibətləri paradiqma dəyişikliyinə məruz qala bilər. Artıq Avropa məkanında da bu qadının seçkilərdə məğlub olması arzulanır və Makronun qalib gələcəyinə ümidlər bəslənir. O, dəfələrlə çıxışlarında bildirib ki, Türkiyənin Avropa İttifaqına üzvlüyünə qarşıdır, hətta Ankaranın NATO üzvü olmasına da mənfi baxır. Bundan əlavə Le Pen dəfələrlə Fransada iri diaspora malik olan türk icmalarına qarşı aqressiv çağırışları ilə yadda qalıb. Beləliklə, indiki halda Le Penin deyil, məhz Makronun seçkilərin ikinci turunda qalib gəlməsi həm Türkiyə üçün, həm də region üçün maraqlıdır.

> Ekspertlər hesab edir ki, bu seçkilər həm də erməni diasporunun gücünün zəifləməsinə gətirib çıxaracaq

Seçkinin nəticələri arasında ən maraqlı detal Azərbaycana hücum edən Pekressin cəmi 5 faiz səs toplamasıdır. Xanım namizədi gizli şəkildə Xankəndinə səfər etmək, separatçı-terrorçu rejimə dəstək vermək, seçki kampaniyasını fransızlardan daha çox ermənilərin maraqları üzərində qurmaq xilas etmədi.

**Fransadakı seçkilərin ilk turunu "Şərq"ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Makronun reytinqinə təsir edən, Le Pen daxil olmaqla radikal sağçıların geri düşməsinə səbəb olan əsas amillərdən biri Ukrayna müharibəsi və Rusiyanın Avropaya təhlükəsi oldu.** Analitikə görə, eyni səbəb ikinci turda da Makronun seçiləcəyi ehtimalını gücləndirir. Xüsusilə Le Penin "prezident seçilsəm, NATO-dan çıxacağıq" sözləri bu nəticəyə təsir edə bilər: "Azərbaycanın maraqları baxımından dəyişən ciddi heç nə yoxdur. Namizədlərin hamısı erməni maraqlarına xüsusi önəm verirlər. Erik Zemmur Ermənistana, Valeri Pekress Xankəndinə səfər etmişdi. İkinci turda yarışacaq Le Pen "miatsumu" - "Qarabağın Ermənistana birləşdirilməsi" ideyasını dəstəkləyənlərdəndir. Amma Fransada seçki kampaniyasının ötən seçkilərlə müqayisədə daha çox erməni kartı üzərində qurulması namizədlərin, xüsusilə Pekressin yanlışı idi. Çünki ölkədə sosial-iqtisadi problemlər var. Pandemiyadan sonra həm işsizlik, həm də vaksinasiyaya görə narazılıq artıb. Bu situasiya fonunda gözlənilən idi ki, namizədlər kampaniyanı daxili problemlər üzərində quracaqlar. Lakin erməni məsələsi ön plana çıxdı. Erik Zemmur və Valeri Pekress bu məsələyə xüsusi önəm verirdilər və görünür, erməni icmasının səsi ilə seçkidə önə çıxacaqlarını düşünürdülər. Pekress isə Qarabağa qanunsuz gəlişi ilə bu məsələdə bir qədər də "önə keçmiş" kimi göründü. Lakin seçkinin nəticələri erməni kartının işləmədiyini göstərdi. Deməli, fransalı seçicilər üçün vacib olan daxili problemlərdir".

**A.Nərimanlıya görə, seçkilər erməni diasporunun gücünün zəifləməsinə gətirib çıxaracaq:** "İkinci turda da qalib gələcəyi ehtimal edilən Makronun erməni mövqeyindən çıxış etdiyi bəllidir. Lakin dəyişən məqam odur ki, Fransa Avropa İttifaqının siyasi xəttinə uyğun davranmağa məcbur olacaq. Bu həm Fransanın Avropada güc olmaq istəyindən irəli gəlir, həm də bu ölkə Aİ-yə sədrlik edir. Avropa İttifaqının siyasi xətti isə Azərbaycan-Ermənistan münasibətlərində müəyyən qədər də olsa balans qorumağı tələb edir. Aİ-nin Cənubi Qafqazda siyasi-iqtisadi maraqları, Rusiya-Ukrayna müharibəsi fonunda Azərbaycanın həm siyasi, həm enerji faktoru üzərindən əhəmiyyətinin artması, həm də Minsk qrupunun arxa plana keçməsi rəsmi Brüsselin balans qorumasını şərtləndirən amillərdəndir. Bu da Fransanı erməni maraqlarını ön planda görməsi siyasətini dəyişdirə bilər".





# Anti-terror əməliyyatlarına ciddi hazırlıqlar gedir

## Əziz Əlibəyli: "Coğrafi üstünlüklərin fəth olunması və təminat yollarının nəzarət altına alınması uğurla davam etdirilir"

**Ötən gün "Kaliber.az" saytında Azərbaycan Ordusunun Ağdərə istiqamətində irəliləməsi ilə bağlı məlumatlar yer alıb. Qeyd olunub ki, ötən ilin aprelindən bu günə kimi Azərbaycan Ordusu Ağdərə istiqamətində separatçıların qurduğu 13 postu bir güllə atmadan götürüb və orada hazırda Azərbaycan bayrağı dalğalanır.**

Vurğulanıb ki, Ermənistan rəhbərliyi regiondakı mənasız mövcudluğunu nümayiş etdirmək cəhdlərinə əl atır. Müxtəlif provokasiyalar həyata keçirərək hazırda bütün dünyanın diqqətinin Ukraynada olduğu bir vaxtda hamıya şikayətlənmək xəttini tutur: "ATƏT-in Minsk qrupunun faktiki olaraq yoxa çıxması isə Ermənistan hakimiyyətində təmsil olunanların sinir sistemlərini daha da sıradan çıxarıb". Video süjetdə o da diqqətə çatdırılır ki, bütün bu hadisələrin fonunda bir qrup silahlı erməni separatçının Azərbaycan ərazisində öz mövcudluğunu qoruyub saxlamaq istəməsi və ara-sıra təxribatlara əl atması artıq heç nəyi dəyişmir: "Ermənistan tərəfi Fərruxda itirilmiş mövqelərlə bağlı fəryad qopardığı bir vaxtda Azərbaycan Silahlı Qüvvələri Ağdərə istiqamətində mövqelərini möhkəmləndirməklə məşğuldur".

> "Qarabağda baş verən proseslərin, ələlxüsus Ordumuzun hərəkətləri ilə bağlı hansısa rəsmi açıqlamanın olmaması bir neçə faktora bağlıdır"

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə deyib ki, hazırda Qarabağda zəncirvari idarəetmə ilə bağlı proses gedir. Analitik bəyan edib ki, son müşahidələr və cərəyan edən proseslər göstərir ki, coğrafi üstünlüklərin fəth olunması və təminat yollarının nəzarət altına alınması uğurla davam etdirilir:** "Laçın dəhlizindən keçərək Ağdərəyə qədər uzanan, sülhməramlıların nəzarəti altında və eyni zamanda terrorçuların yerləşdiyi əraziləri nəzarət altına almaq çox önəmlidir. Bunun üçün bütün təmas boyu qısa müddətdə anti-terror əməliyyatlarına başlamaq və ya başqa təsir rıçaqlarını işə salmaq istiqamətində ciddi hazırlıqlar gedir. Qarabağda baş verən proseslərin, ələlxüsus Ordumuzun hərəkətləri ilə bağlı hansısa rəsmi açıqlamanın olmaması bir neçə faktora bağlıdır. Ermənistanın daxili auditoriyasının ajiotajı Brüssel görüşündə əldə edilmiş uğurlu irəliləyişə əngəl törədə, ümumi prosesi yarımçıq saxlaya bilər. O baxımdan Azərbaycan hökuməti paralel şəkildə, ilk növbədə masada ciddi irəliləyiş əldə edir və onu təsdiqləyir. Digər yandan isə Qarabağda strateji nöqtələri nəzarətə götürməklə hərbi vasitə ilə prosesi yekunlaşdırmağa çalışır. Görünən odur ki, 2025-ci ilə kimi bizi çox ciddi proseslər gözləyir. Həmin dövrədək problemlərin aradan qaldırılması mühüm hədəflərdəndir".

**İsmayıl Qocayev**

# "Fərruxda toplu məzarlığın aşkarlanması təsadüfi deyil"

## Aygün Həsənoğlu: "Çox yerdə belə məzarlar ortaya çıxacaq"

**Xocalı rayonunun Fərrux kəndi ərazisində insan qalıqlarının aşkarlanması erməni vəhşiliyinin daha bir sübutudur. İnsan qalıqları Azərbaycan Ordusu hərbçilərinin qanunsuz erməni silahlı birləşmələrindən azad etdiyi Xocalı rayonunun Fərrux kəndindəki mövqelərdə qazıntı işləri apararkən aşkarlanıb.**

Qalıqların Azərbaycanın birinci Qarabağ müharibəsində Fərrux kəndi və yüksəkliyi uğrunda gedən ağır döyüşlərdə şəhid olmuş vətəndaşlara məxsusluğu ehtimal edilir, amma əslində, buna heç bir şübhə yoxdur. Bununla belə Azərbaycan dövləti insan qalıqlarının eksumasiyasının aparılmasını vacib bilir. Qalıqların Azərbaycan əsgərlərinə və yaxud ermənilər tərəfindən qətlə yetirilmiş Azərbaycan vətəndaşlarına məxsusluğu rəsmi təsdiqləndikdə, bu, erməni vəhşiliyinin, Ermənistan dövlətinin müharibə cinayətlərinin daha bir sübutu olacaq. Hazırda faktla bağlı araşdırmalar davam edir.

KİV-ə açıqlama verən millət vəkili Elman Məmmədov da insan qalıqlarının Birinci Qarabağ müharibəsi zamanı Fərrux yüksəkliyində gedən döyüşlərdə şəhid olmuş şəxslərə aid olduğunu bildirmişdi: "Müvafiq qurumlar tərəfindən qalıqların kimliyi üçün araşdırmalar aparılacaq. Birinci Qarabağ müharibəsi dövründən 4000-ə dək insanımızın taleyi məlum deyil. Güman edilir ki, ermənilər bu insanlar haqqında məlumat vermirsə, deməli, onları qətlə yetiriblər. İşğaldan azad olunmuş ərazilərdə artıq neçənci dəfədir ki, kütləvi məzarlıq aşkarlanır. Məzarlıqların xeyli hissəsi elə Xocalı ərazisindədir. Əhali Xocalıdan çıxan zaman Fərrux istiqamətində getməmişdi. Ancaq Fərrux kəndi istiqamətində 1992-1993-cü illərdə bir neçə dəfə hərbi əməliyyatlar olub. Fərrux kəndi istiqamətində şəhid qalıqları aşkarlana bilər. O dövrlərdə erməni daşnaqları əsir götürdükləri azərbaycanlıları qul kimi ucqar kəndlərdə işlədirdilər. Həmin şəxslər vəfat etdikdə isə onları insanlığa sığmayan şəkildə basdırırdılar".

Xatırladaq ki, Xocavəndin Edilli, Kəlbəcərin Başlıbel kəndində də erməni vandalizminin sübutu olan kütləvi məzarlıqlar müəyyən edilib. Kütləvi məzarlıq Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun topladığı ifadə və materiallar əsasında müəyyən olunur.

**Uzun müddət Dövlət Komissiyasının İşçi qrupunun tərkibində çalışmış yazıçı-dramaturq, filologiya üzrə fəlsəfə doktoru, erməni məsələsi və Qarabağ mövzusu haqqında 80-ə qədər məqalənin və bir neçə kitabın müəllifi, hazırda qardaş Türkiyədə yaşayan Aygün Həsənoğlu "Şərq"ə komissiyanın fəaliyyəti, əsir və girovlar, itkin düşmüş sayılan şəxslər barədə ətraflı məlumatlar verdi:**




***"Bəzi yerlərin adlarını çəkə bilmirəm. O yerlər tamamilə işğaldan qurtarılıb Azərbaycanın nəzarətinə keçəndən sonra xatırladacağam"***

- Birinci Qarabağ müharibəsi dövründə 7 minə qədər Azərbaycan vətəndaşı itkin kimi qeydiyyata alınmışdı. İtkin, əsir və girovlarla bağlı fəaliyyətin mərkəzləşdirilməsi üçün 1993-cü ildə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və onun İşçi qrupu yaradıldı. İşçi qrupu fəaliyyətə başlayanda cəmi 3 nəfərdən ibarət idi və heç bir avadanlığı olmadan çox gərgin bir iş rejimində çalışırdı. Sonradan İşçi qrupu əməkdaşlarının sayı artırıldı.

**- Aygün xanım, siz İşçi qrupu yaranandan orada çalışmısınız?**

- Xeyr. Məni 2002-ci ilin dekabrında İşçi qrupun tərkibində çalışmağa dəvət etdilər. 2007-ci ilin dekabrına - öz ərizəmlə işdən ayrılana qədər bu İşçi qrupun tərkibində işlədim. Bu müddətdə əsir, girov və itkin problemi ilə bərabər İşçi qrupunun fəaliyyəti ilə də yaxından tanış olmuşam. Mən işə başlayandan İşçi qrupunun fəaliyyətinin yüksəldiyi, yeni avadanlıqlarda təchiz edildiyi dövrlər idi. Verdiyim təklif və layihələr Dövlət Komissiyasının fəaliyyətinin xalq arasında tanınması ilə bərabər, eyni zamanda mətbuatla əlaqələrinin yaradılmasına və Qarabağ həqiqətlərinin yayılması istiqamətində böyük işlər görülməsinə təkan verdi. 2003-cü ildə təqdim etdiyim layihənin sadəcə bir parçası olan "Erməni terroru" albomu 9 dildə dünyaya yayılaraq ciddi müzakirələrə səbəb oldu. Eyni zamanda şəxsən mənim təkliflərimlə nəşr olunan digər təbliğat vasitələri həm Azərbaycanda, həm dünyada erməni cinayətlərinin tanıdılmasında da rol oynadı. Lakin təəssüf ki, layihələrimin qarşısı alındı. O qədər bezdirdilər ki, öz ərizəmlə, öz istəyimlə İşçi qrupunu tərk etdim. Amma orada hələ də mənim layihəmə sahiblənmək istəyən şəxslər var. Məsələn, 2008-ci ildə ingiliscə nəşr etdirdiyim "Erməni əsirliyində" kitabımın adını dəyişib 3 nəfərlik müəllif qrupu əcaib şəkildə nəşr etdirib. Təsəvvür edin ki, İşçi qrupu rəhbərinin dərkənarı olan səhifələrin surətini çıxarıb kitab şəklinə salıblar. Heç cür başa düşə bilmirəm ki, buna necə icazə verilib. Mənim kitablarımı komissiya nəşr etmədiyi üçün öz vəsaitimlə nəşr etdirdim. Təkcə "Erməni sindromu" kitabım internetdə 25 min dəfədən artıq oxunub, mənə heç bir müəlliflik haqqı ödənməsə də. Hazırladığım heç bir materialda bu cür səhvlərə yol verməmişəm. Hətta "Erməni terroru" fotoalbomunu da redaktə adı ilə bərbad hala salmışdılar. Bu halı ilə də səs gətirib, təbliğatda böyük rol oynayıb.

**- İşçi qrup hansı meyarlarla işləyirdi?**

- Dövlət Komissiyasında müharibəni sanki hər gün yaşayırdıq. Bütün faktlar diqqətlə araşdırılırdı. Hər bir itkin üçün sənədlər toplusu hazırlanır, faktlar həm də kompüterdəki bazaya əlavə edilirdi. Məsələn, mən işləyən dövrdə Xocalı cinayət işini araşdırmağa başladıq. 97 cildlik Xocalı cinayət işini oxuyan az insanlardan biriyəm. İş prosesi belədir ki, İşçi qrup itkin və ya əsir düşdüyü bildirilən şəxsləri qeydiyyata alır və onların sonrakı taleyini araşdırmağa başlayırdı. Həmin şəxs əgər hərbçidirsə, olduğu hərbi hissə, əsgər yoldaşları müəyyənləşdirilərək onlardan məlumat alınır, olduğu hərbi hissənin yeri və itkin düşdüyü yer, itkin və əsir düşməsinə şahid olan şəxslər müəyyənləşdirilərək onlardan məlumatlar toplanırdı. Eyni zamanda yaşayış yeri, ailəsi müəyyənləşdirilib onlardan da bildikləri məlumatlar yazılı şəkildə alınırdı. Mən işlədiyim dövrdə itkinlərin özünəməxsus xüsusiyyətləri də qeydə alınırdı. Məsələn, üzündə, bədənində hər hansı əlamət, yaxud birinin soğan yeməməsi, başqa birisinin gözünü çox qırpmasından tutmuş hər məqam diqqətlə öyrənilirdi. Bunlar qeydə alınaraq itkinlərin məlumat bazasına əlavə edilir, beynəlxalq təşkilatlara məlumat göndərilərkən və ya itkinlə bağlı yeni fakt üzə çıxarkən yenidən açılaraq təhlil edilirdi. Bundan başqa hər gün müraciət edən əsir-girov, itkin düşmüş hesab edilən şəxsin ailə üzvləri İşçi qrupunda qəbul edilir, onlara yaxınlarının axtarışı ilə bağlı məlumatlar verilir, problemlərinin həllinə çalışılırdı. Əsir və girov düşmüş şəxslərin söylədikləri yazıya alınmaqdan başqa, həm də video-kameraya çəkilərək arxivə əlavə edilir, bu faktlardan arayışlarda və digər sənədlərdə istifadə edilirdi.

**- Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin dəqiq sayı bilinirdi?**

- Araşdırmalar nəticəsində 7 mindən artıq itkinin sayı dəqiqləşdirilərkən 4 mindən də aşağı endirildi. Onlardan 872 nəfərinin ermənilər tərəfindən əsir və girov götürülməsi barədə məlumatlar var. Qalanlarının isə taleyi haqqında heç bir məlumat yoxdur. 500-dən artıq Azərbaycan vətəndaşı əsirlikdə vəhşicəsinə qətlə yetirilib. Bu məlumatlar Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının araşdırmalar əsasında əldə etdiyi rəsmi məlumatlardır. Hətta müharibə dövründə Ermənistanın işğal altında saxladıqları ərazidə və Ermənistanda əsirlərimizi həm hərbi hissələrdə, həm həbsxanalarda, həm də şəxsi evlərdə saxladıqları barədə məlumatlar vardı. Hətta ermənilər onların bir qismini pula və benzinə, yaxud itkin düşmüş erməni yaxınları ilə dəyişmək üçün ailələri ilə danışdırıblar da. Bəzi girovlardan ailələrinə beynəlxalq təşkilatlar, yaxud jurnalistlər vasitəsilə məktub da göndərilib. Bunlar barədə həm "Erməni sindromu" kitabımda, həm də 300-dən artıq əsir-girovun erməni əsirliyindəki xatirələrini topladığım və 2008-ci ildə ingiliscə nəşr etdirdiyim "Erməni əsirliyində" kitabımda əks etdirmişəm. Bu məlumatlar şahid ifadələri ilə birlikdə beynəlxalq təşkilatlara təqdim edilib. İtkinlərin taleyinin müəyyənləşdirilməsi, əsir və girovların geri alınması üçün Azərbaycan dövləti mümkün olan hər işi görüb və mən bunun şahidiyəm. Dövlət Komissiyasının sədri, əvvəl milli təhlükəsizlik naziri olub, indi isə Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəridir. Sədrin kim olmasından asılı olmayaraq, həmişə əsir, girov və itkinlərin taleyinə həssaslıqla yanaşılıb.

Təəssüflə deməliyəm ki, əsir və itkin problemini pul qazanmaq vasitəsinə çevirmək istəyən şərəfsizlər də olur. Dəfələrlə itkinlərin ailələrindən bu məqsədlə pul alanlar olub. Hətta bir neçə il əvvəl Daşqın Gülməmmədov adlı fırıldaqçı sosial şəbəkədə məni axtarıb tapmışdı, əsir, girov taleyinə həssaslığımdan istifadə edərək yalan məlumatlarla 2 əsirimizi tapdığını bildirərək onu geri gətirmək adıyla məndən pul istəmişdi, hətta 200 dollar da almışdı. Yalanları ortaya çıxanda da məni qorxutmaq istədi. Gördü bu təsir eləmir, qaçıb gizləndi, səhifəsini bağladı. Elə həmin vaxtda da başqasının şikayəti ilə həbs edildi. Belə şərəfsizlər müharibə vaxtında da olub, sonralar da olublar. Nə qədər alçaq olasan ki, insanların dərdlərindən də pul qazanmaq istəyəsən. Hakim olsaydım, onlara güllələnmə cəzası verərdim.

**- Aygün xanım, Fərrux kəndində hərbçilərimizin qazıntı işləri zamanı insan qalıqlarının aşkarlanmasından xəbərdarsınız. Ermənilərin "bu qalıqlar ermənilərə aiddir" deyərək növbəti saxtakarlığa can atmaq istədiklərini də bilirsiniz. Bu haqda nə deyə bilərsiniz?**

- Fərrux kəndindəki toplu insan məzarının aşkarlanması heç də təsadüfi deyil. Çox yerdə belə məzarlar ortaya çıxacaq. Ağdamda 300 nəfərin birdəfəyə qətlə yetirilməsi hələ 90-cı illərin sonunda ermənilərin özlərinin mübahisəsi zamanı etiraf edilmişdi. Ümumiyyətlə, bu ərazilər diqqətlə araşdırılmalıdır. Bəzi yerlərin adlarını çəkə bilmirəm. O yerlər tamamilə işğaldan qurtarılıb Azərbaycanın nəzarətinə keçəndən sonra xatırladacağam. İllərlə itkin kimi yolunu gözlədiyimiz bir çox insanın öldürülərək hansısa quyulara atılması, toplu və ya fərdi şəkildə torpağa basdırılması mümkündür. Qaradağlı kəndində də belə olmuşdu. Onların bir qisminin cəsədini ermənilər torpaqdan çıxararaq pul qarşılığında geri vermişdilər. Ermənilərin iddialarına gəlincə, onların sərsəm iddiaları tarixdə heç bir zaman sübut edilməyib. Təbii ki, indi də belədir. Toplu məzar Azərbaycanın nəzarətində olan ərazidən tapılmayıb ki. 30 ilə yaxın müddətdə həmin ərazilər erməni separatçılarının nəzarətində olub. Nəhayət, antropoloji quruluş var. Ermənilərin ayaq və baş şəkilləri bizdən fərqlidir. Başlarının və burunlarının şəkli məlumdur. Ermənilərin iddiaları "sonsuzdur". Onlar Tanrının da "erməni" olduğunu iddia edən xəstə təxəyyüllü toplumdur. Qalıqların kimə məxsusluğunu elmin, texnologiyanın hazırkı yüksək dövründə çox rahat müəyyənləşdirmək və sübut etmək mümkündür. Qalıqların tarixini arxeoloqlar da, rahatca müəyyənləşdirə bilər. Bu, mübahisə doğuracaq mövzu deyil. Faktdır, fakt kimi də araşdırılmalıdır.

**Məlahət Rzayeva**

# "Vaxt gələcək Xocalıda yaşayacağıq"



Elman Məmmədov: "Parlament üzvlərinin hamısı Şuşada duyğulu anlar yaşadı, öz ürəklərindən gələni söylədilər"

**Ötən həftə sonu Şuşa şəhərində ilk dəfə olaraq Milli Məclisin iki komitəsinin birgə iclası keçirilib. İclasda vurğulanıb ki, Şuşa şəhərində bir çox dövlət orqanları fəaliyyət göstərir. Ona görə də qanunvericilik hakimiyyəti orqanının tədbirlərinin burada keçirilməsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacib göstəricilərindən biri kimi mühüm siyasi əhəmiyyət kəsb edir.**

İclasdan sonra Milli Məclisin deputatları Şuşa şəhərində gəzintiyə çıxıblar. Parlamentarilər Azərbaycanın mədəniyyət paytaxtında görməli yerləri, tarixi və mədəni abidələri ziyarət edib, Cıdır düzünə qalxıblar. Qanunverici orqanın nümayəndələri həmçinin Şuşada aparılan yenidənqurma işləri ilə də tanış olublar. Bəzi deputatlar Şuşa təəssüratlarını sosial şəbəkədə iki-üç cümləylə ifadə etməyə çalışaraq, hədsiz duyğulandıqlarını, tərifi mümkün olmayan hisslər yaşadıqlarını yazıblar. Şuşada keçirilmiş ilk tarixi iclasda iştirak edən millət vəkillərindən biri də Elman Məmmədov olub. Parlament üzvü "Şərq"ə açıqlamasında Qarabağın incisi ilə bağlı öz təəssüratlarını bölüşüb. Deputat bildirib ki, Milli Məclisin komitə iclaslarından birini Şuşa şəhərində təşkil etmək bütün parlamentarilərin ən böyük arzusu idi: "Şuşa işğaldan azad olunandan sonra mən də, digər həmkarlarım da bununla bağlı təkliflərimizi səsləndirmişdik. Ulu öndərimizin dediyi kimi Şuşa şəhəri təkcə yaşayış məskəni yox, eyni zamanda Qarabağın, Azərbaycanın simvolu kimi tanınır. Tarixi Qarabağ xanlığının mərkəzi olan Şuşa bizim üçün çox əzizdir. Onu da xüsusi qeyd edim ki, işğalçı düşmən Şuşa təcavüz altında olanda bizə qarşı təhqiramiz, aşağılayıcı addımlar atırdı. Separatçılar bəyan edirdilər ki, Şuşada qondarma rejimin "parlament" binası tikiləcək, orada "iclaslar" keçiriləcək və s. Komitənin iclasında gündəlikdə olan məsələlərdən biri Azərbaycan və Türkiyə arasında "Qafqaz qartalı" adlı birgə təlimlərin keçirilməsi idi. Müzakirə zamanı dedim ki, Azərbaycan qartalları Şuşanı düşməndən azad etdilər. Qarğalar, sağsağanlar getdi, qartallar Şuşaya geri döndü. Biz onların qəhrəmanlığı, şücaəti, Ordumuzun, Ali Baş Komandanımızın cəsarəti, qətiyyəti hesabına Şuşada parlamentin komitə iclaslarını keçiririk. Bu təşəbbüsün xalqımız üçün qürurverici, ruhlandırıcı əhəmiyyəti var. Eyni zamanda düşmənə və onun havadarlarına növbəti ağır zərbədir. Revanşistlərə, yenidən işğal düşüncəsində olanlara mesajdır".

E.Məmmədov vurğulayıb ki, Cıdır düzündə və Şuşanın bir neçə nöqtəsində dayanaraq doğma Xocalıya həsrətlə baxıb: "Ürəyimdən nələr keçirdi? İnşallah, gün gələcək, Şuşamızı işğaldan azad edən Azərbaycan Ordusu Xocalımızı, Xankəndimizi, Xocavəndimizi, Ağdərəmizi də düşmən tapdağından qurtaracaq. O gün gəldiyi zaman doğma yurd-yuvamıza uzaqdan həsrətlə baxmayacağıq. Vaxt gələcək Xocalıda yaşayacağıq. Parlament üzvlərinin hamısı Şuşada duyğulu anlar yaşadı, öz ürəklərindən gələni söylədilər. Bu, müqəddəs bir ziyarət və möhtəşəm tədbir idi. Əlbəttə, iclaslar davam edəcək. Ola bilsin, komitələrdən sonra Milli Məclisin plenar iclaslarından biri də məhz Şuşada keçirilsin".

**İsmayıl Qocayev**

**Türkiyə Nazirlər Kabinetinin aprelin 12-də keçiriləcək toplantısında Azərbaycanla Ermənistan arasında sülh prosesinin müzakirəsi aparılacaq. Toplantıda həmçinin Rusiya-Ukrayna müharibəsi, Türkiyədə iqtisadi vəziyyət və başqa mövzulara toxunulacaq.**



# Yekun sülhə Türkiyə töhfəsi

**Samir Hümbətov:** "Əslində rəsmi Ankara məsələnin Türkiyənin və Aİ-nin kurasiyasına keçməsinə can atır, Rusiyanı uzaqlaşdırmaq məsələsi gündəmdədir"

**Əhəd Məmmədli:** "Türkiyə sülh müqaviləsinin bağlanmasına daxili işi kimi baxır"

Kabinetin söz açacağı məsələlər arasında terrorçuluğa qarşı mübarizə və yay fəslində davam edəcək əməliyyatlar da var. Məlumata görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iclasdan sonra ölkə əhalisinə müraciət ünvanlayacaq. Qeyd edək ki, Türkiyə-Azərbaycan münasibətləri həm siyasi, həm də mənəvi müstəvidədir. İki ölkə arasında böyük iqtisadi-ticari əlaqələr mövcuddur. Qardaş və dost ölkə kimi Türkiyə Azərbaycanın mövqeyini diplomatik səviyyədə mütəmadi dəstəkləyir.

**Rəsmi Ankaranın keçirəcəyi iclası "Şərq"ə şərh edən Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov bildirib ki, Türkiyə 44 günlük müharibə dönəmi və ondan sonrakı mərhələdə Qarabağla bilavasitə maraqlanmağa başlayıb:** "Təhlükəsizlik Şurasının toplantı keçirməsi önəmlidir. Ermənistanla Türkiyə arasında da danışıqlar prosesi gedir. Bunların da məntiqi nəticəyə varacağını düşünürəm. Aprelin 6-da Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan Brüssel görüşünün, əldə edilən razılığın mühüm əhəmiyyəti var.

Moskva artıq Qarabağ məsələsində kənarlaşdırılma mövqeyinə gətirilir. Rusiyanın Ukraynaya qarşı müharibəsinin ardınca Qərb ölkələri ilə Rusiya arasında yaranan konfrontasiya durumu ATƏT çərçivəsindən çıxartdı, Avropa Birliyi (Aİ) məşğuldur. Türkiyə-Rusiya və Aİ konfiqurasiyası var".

**Politoloqun sözlərinə görə, rəsmi Ankara aktiv rol oynayaraq, yekun sülhə çalışır:** "Türkiyənin həm Ermənistanla apardığı danışıqlar, həm Azərbaycanla münasibətləri, həm də Aİ-nin mövqeyi ümumi mənzərə yaradır. Əslində rəsmi Ankara məsələnin Türkiyənin və Aİ-nin kurasiyasına keçməsinə can atır, Rusiyanı uzaqlaşdırmaq məsələsi gündəmdədir. Gələcəkdə Qarabağda müvəqqəti dislokasiya edilmiş "sülhməramlılar"ın çıxarılması, sülh müqaviləsinin imzalanması ilə əlaqəlidir.

Brüssel görüşündən sonra İ.Əliyevin türkiyəli həmkarı R.T.Ərdoğanla telefon danışığı Rusiyanın ikinci plana keçdiyini göstərir. Başlıca hədəf Türkiyə ilə müzakirələrin aparılmasındadır".

**Politoloq Əhəd Məmmədli də qardaş ölkənin Azərbaycanı Qarabağ məsələsində dəstəklədiyini vurğulayıb:** "Türkiyə Cənubi Qafqazda əsas oyunçulardan biridir. Azərbaycan-Ermənistan münasibətlərində aktiv iştirak edir. Sülh müqaviləsinin bağlanmasına daxili işi kimi baxır. Dünya ölkələrinə göstərir. Sözügedən istiqamətdə Azərbaycana təyqizlərin qarşısını almaq üçün müzakirələr gedəcək".

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”**




# Hamı müəllim, həkim, mühəndis olmalı deyil ki?

## “Böyük Qayıdış” zamanı bizə böyük zavodlar, fabriklər, şirkətlərlə yanaşı, fərqli peşələrə yiyələnmiş insanlar da lazım olacaq”

**İşğaldan azad edilmiş ərazilərdə bərpa işləri uğurla davam etdirilir. Qarabağda aparılacaq quruculuq işləri ölkəmizin həyatına çoxsaylı yeniliklər gətirəcək. ”Böyük Qayıdış” keyfiyyətcə yeni həyata qayıdış olacaq. 30 il əvvəl hətta yaşayış üçün ən vacib əşyalarını belə götürməyə macal tapmadan öz evlərini tərk etmiş sakinlər layiqli həyat şəraiti ilə təmin olunmuş müasir kəndlərə və şəhərlərə qayıdacaqlar.**

Bunun üçün ilk addımlar hərbi əməliyyatlar başa çatdıqdan dərhal sonra atılmağa başlayıb. Prezident İlham Əliyev bərpa olunacaq yaşayış sahələrində müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqini xüsusi diqqət mərkəzində saxlayır. Bu isə Qarabağın yaxın gələcəkdə ”ağıllı region” kimi dünyada tanınacağına əlverişli şərait yaradır. İşğaldan azad olunmuş bütün yaşayış məntəqələri üçün bərpa və yenidənqurma layihələrinin işlənməsi tikinti-abadlıq işlərinin Qarabağın bütün ərazisində eyni vaxtda aparılacağından xəbər verir. Bunun üçün dövlət tərəfindən nəzərdə tutulmuş vəsaitlərin böyük bir hissəsi artıq icraçı şirkətlər üçün ayrılıb. Yaxın onillikdə Qarabağ ərazisi yerli və xarici şirkətlərin geniş fəaliyyət meydanına çevriləcək. Türkiyə, Pakistan və İtaliya şirkətlərinin bir sıra layihələr üzrə fəaliyyətə başlaması bunun əyani göstəricisidir. Əvvəlcə bütün regionda yollar, körpülər, su elektrik stansiyaları, su və qaz təminatı kimi həyati vacib infrastruktur layihələrinin reallaşdırılması nəzərdə tutulur. Ermənİ barbarlığı nəticəsində 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş torpaqları ekoloji terrora məruz qalıb, zəngin yeraltı və yerüstü sərvətləri vəhşicəsinə istismar olunub. Regionun meşə örtüyü məqsədli şəkildə məhv edilib, münbit torpaqları, su ehtiyatları ekoloji və radioaktiv çirklənməyə məruz qoyulub. Bütün bunlara baxmayaraq, azad olunmuş ərazilərin minalardan təmizlənməsi, keçmiş məcburi köçkünlərin doğma yurdlarına maksimum qısa müddətdə qayıtması prioritet hədəflər sırasındadır. Şübhəsiz, Qarabağda müasir infrastrukturun qurulması, ən yeni texnoloji vasitələrin tətbiqi ilə yanaşı digər müxtəlif sahələrdə də inkişaf zəruridir. Ələlxüsus, işğaldan azad edilmiş ərazilərə ”Böyük Qayıdış” prosesi zamanı yaşam üçün həyati əhəmiyyət kəsb edən peşələrin və təcrübəli peşə sahiblərinin olması olduqca vacibdir. Məhz buna görə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mühüm bir addım atıb. Komitədən verilən məlumata görə, məcburi köçkün qadınlar üçün peşə təlimləri keçiriləcək. Bildirilib ki, Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı Ağcabədi, Bərdə və Tərtər Qadın Resurs Mərkəzləri birgə layihə həyata keçirəcəklər. Qurumlar ”İqtisadi və sosial iştirakın artmasına mane olan əngəlləri aradan qaldırmaq üçün Azərbaycanda münaqişədən təsirlənmiş həssas qruplara daxil olan qadınların səlahiyyətlərinin artırılması və onlar üçün bərabər imkanların yaradılması” layihəsi çərçivəsində birgə əməkdaşlıq edəcəklər. Birgə fəaliyyət çərçivəsində məcburi köçkün qadınlara hüquqi və psixoloji yardım, kiçik və orta biznes fəaliyyətinə başlamaq istəyənlər üçün isə özünüməşğulluğa dəstək və müxtəlif kurslarin tədrisi xidmətləri göstəriləcək. Ağcabədi, Bərdə və Tərtər Qadın Resurs Mərkəzlərində (QRM) məcburi köçkünlük statusu olan qadınlara kompüter, dərzilik, şirniyyat, qadın gözəllik salonu və bir sıra sahələr üzrə əyani ilkin peşə bilikləri aşılanacaq. Psixoloji, hüquqi və liderlik kimi seçilmiş sahələr üzrə xidmətlərin eyni zamanda onlayn tədrisi də planlaşdırılır. Qeyd olunub ki, yaşı 18-65 aralığında olan hər bir məcburi köçkün qadın üçün peşə təlimi kurslarının ödənişsiz və mütəmadi təşkili planlaşdırılır. Adıçəkilən tədbirlərdə iştirak etməklə məcburi köçkünlər ilkin peşə bilikləri qazanacaq və növbəti mərhələdə əldə etdikləri əyani təcrübələri gələcək karyeralarında tətbiq edə biləcəklər. Kurslarda iştirak etmək və ya daha ətraflı məlumat almaq istəyənlər aidiyyəti üzrə yaşadıqları ərazinin Qadın resurs Mərkəzlərinin koordinatoru ilə əlaqə saxlaya bilərlər.

**Önəmli təşəbbüslə bağlı ”Şərq”ə danışan sabiq millət vəkili Həvva Məmmədova peşə təlimlərinin çox vacib olduğunu deyib. Keçmiş deputat xatırladıb ki, torpaqlarımız işğal olunandan qısa zaman sonra qaçqın və məcburi köçkünlərlə bağlı yayılan statistik rəqəmlər göstərirdi ki, təhsil almış insanlar arasında qadınlar çoxluq təşkil edirdi:** ”30 il zaman az deyil, qaçqın və məcburi köçkün ailələrinin tərkibi dəyişib, nə qədər insan dünyaya gəlib. Gənclər ali təhsilə yiyələniblər. Amma hamı eyni deyil. O baxımdan qaçqın və məcburi köçkün ailələri üçün peşə kurslarının təşkili, resurs mərkəzlərinin fəaliyyəti çox önəmlidir. O vaxtlar hər bölgədə, o cümlədən işğal olunmuş ərazilərimizdə də peşə məktəbləri var idi. Ancaq işğal nəticəsində hamısı yerlə-yeksan oldu. Peşə məktəblərində dərs deyən müəllimlərin hərəsi bir yana dağıldı. Qaçqın və məcburi köçkün ailələri də müxtəlif rayonlarda yerləşdirildilər, şəhərciklər, qəsəbələr salındı. Amma onların hamısında ayrı-ayrılıqda texniki-peşə məktəbləri tikmək və istifadəyə vermək mümkünsüz idi. O baxımdan belə resurs məktəblərinin fəaliyyəti olduqca əhəmiyyətlidir. Xanımlarımızın, qızlarımızın müxtəlif peşələrə yiyələnməsi labüddür. Buna ehtiyac böyükdür. ”Böyük Qayıdış” zamanı bizə böyük zavodlar, fabriklər, şirkətlərlə yanaşı, fərqli peşələrə yiyələnmiş insanlar da lazım olacaq. Hamı müəllim, həkim, mühəndis olmalı deyil ki? Peşələrimiz də öyrənilməli və gənclərə tədris olunmalıdır”.

***"Qarabağın rayonlarına köç edən gənclərimiz fərqli peşələrə yiyələndikcə, bir müddət sonra böyük şəhərlərə, paytaxta qayıtmaq məcburiyyətində qalmayacaqlar"***

**H.Məmmədova vurğulayıb ki, ”ağıllı” şəhər və kəndlərdə də müxtəlif peşə sahiblərinin olması zərurətdir:** ”Qarabağın rayonlarına köç edən gənclərimiz fərqli peşələrə yiyələndikcə, bir müddət sonra böyük şəhərlərə, paytaxta qayıtmaq məcburiyyətində qalmayacaqlar. Bölgəyə axın sürətlənəcək, yeni iş yerləri yaranacaq. Qaçqın və məcburi köçkünlər arasında istedadlı, qabiliyyətli, bacarıqlı insanlar çoxdur. Onları üzə çıxarmaq baxımından da regional resurs mərkəzlərinin olması vacibdir. ”Böyük Qayıdış” üçün əvvəlcədən görüləcək mühüm işlərdən biri də budur. Köç zamanı işsizliyin yaranmaması, başqa problemlərin olmaması üçün peşə sahibi insanların olmasına diqqət yetirmək lazımdır. Hesab edirəm ki, dövlətimizin bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir”.

İsmayıl Qocayev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Ziyalılar Mirşahinin iradlarını qəbul etmirlər



**”Real TV”nin rəhbəri, jurnalist Mirşahin Ağayev ”Mir Şahinin vaxtı” layihəsində çıxış edərkən qələm sahiblərini sərt tənqid edib. M.Ağayev yazıçıların Vətən müharibəsindəki qələbəmizlə bağlı əsərlər yaratmamalarından şikayətlənib: ”Nə olub sizə? Hanı gölməçə boyda olub, özünü dəniz sayan şairlər, yazıçılar, bəstəkarlar? Tutaq ki, əvvəllər bəhanəniz var idi.**

Qələbə ilə bitməyən davadan yazmaq çətin idi. Gərək üstündən xeyli keçsin, mövzu oturuşsun və s. İndiki qələbəmiz var. Özü də necə bir qələbəmiz. Dünyaya nümunə olan. Hamı bu qələbəni öyrənir, tətbiq edir. Bəs hanı bizim ”den pobedimiz”?! Hanı operamız, nəğmələrimiz, hanı hekayələrimiz?! Hara qeyb olmusuz? Kompleksdən çıxın, hörmətli qələm sahibləri. Yazın, qələbəmizi vəsf edin! Yazın... İnsanlar şəhid olub, əlini-qolunu, gözünü itiriblər. Azərbaycanın qalibiyyətinə layiq olmağa çalışın”. Noyabrda Qələbəmizin iki ili olacaq, amma iki əsərimiz belə yoxdur. Onu da Prezident yazmalıdır?Azərbaycanın qələbəsi heç də Lev Tolstoya ”Hərb və sülh” yazdıran qələbədən əskik deyil. Əksinə, artıqdır. Bəlkə əskik olan sizsiz?! Əgər belə deyilsə, sübut edin”.

Görkəmli rəssam, şair Nəvai Mətin, bəstəkar, Xalq artisti Faiq Sücəddinov, yazıçı Aqşin Yenisey və ədəbi tənqidçi Əsəd Cahangir **M.Ağayevin qələm əhlinə ünvanladığı tənqidi fikirləri ilə bağlı ”Şərq”ə danışıblar. N.Mətin diqqətə çatdırıb ki, Mirşahin yenə öz ampluasındadır:** ”Bütün sənət adamları ilə bərabər digərləri də özünə bu sualı verməlidir - ”Mən nə etmişəm?”. Hər bir vətəndaş, eləcə də, Mirşahin bunu özündən soruşmalıdır. Bizim yetərincə sənət adamlarımız, şairlər, yazıçılar, rəssamlar, bəstəkarlarımız İkinci Qarabağ savaşında qazandığımız parlaq qələbə mövzusuna müraciət ediblər. Yəqin ki, Mirşahinin onlardan xəbəri yoxdur. O, indinin özündə belə Müslüm Maqomayevdən, Sovet İttifaqının himnindən misal çəkir”. Rəssam vurğulayıb ki, hazırda yüzlərlə mətbuat orqanımız var və yazılan əsərlər, bəstələnən musiqilər, ərsəyə gətirilən rəsm əsərləri həmin mətbuat orqanlarında təbliğ olunur: ”Ola bilsin, Mirşahinə rast gəlməyib. Amma fakt budur ki, var. Onlardan elə bircə bizim Xalq rəssamımız, bütün ömrünü Qarabağ mövzusuna həsr etmiş Asif Azərellinin adını çəkməyim kifayətdir. Mən Mirşahinin söylədiyi bu tənqidi fikirlərlə razılaşmıram”. **Məsələyə münasibət bildirən bəstəkar F.Şücəddinov hər kəsə özünün ”YouTub”da yayımlanan ”Zəfər” adlı simfonik poemasını dinləmələrini tövsiyə edib:** ”O, televiziyada düz altı dəfə yayımlanıb. İkinci Qarabağ qələbəsinin bir illiyinin tamamında da efirlərdə səsləndirilib. Müharibə dövründə mən iyirmidən çox mahnı, romans, vətən mövzusunda mahnılar bəstələmişəm. Hələ otuz il bundan qabaq ”Vətəndən pay olmaz”ı yazmışam. Mübariz Tağıyev də ifa edib. Mahnı indi də sevilir. 44 günlük Qarabağ savaşı dönəmində kifayət qədər vətənpərvər ruhlu mahnılar yazılıb. Böyük bir əsərdən söhbət gedirsə, deyə bilərəm ki, noyabrın 2-də Filarmoniyada Bəstəkarlar İttifaqı və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə böyük bir konsert baş tutdu. Orda bizim zəfərimizlə bağlı kifayət qədər ciddi əsərlər var idi. Deməyim odur ki, biz yazırıq”. Bəstəkar bu yaxında ”Şuşa” simfonik əsərini yazdığını söyləyib: ”İndi onu dinləmək lazımdır. Özüm bir-bir hər kəsin qapısını döyüb dinlə deməyəcəm ki. ”Youtub”da var. İnsanlarımız da bu işdə maraqlı olmalı, axtarmalı, maraqlanmalıdırlar”.

**Nəvai Mətin:** ”Ömrünü Qarabağ mövzusuna həsr etmiş Asif Azərellinin adını çəkməyim kifayətdir”
**Faiq Sücəddinov:** “Zəfər” və “Şuşa” simfonik əsərlərimi dinləsinlər”
**Aqşin Yenisey:** “Lev Tolstoyun “Hərb və sülh” romanı Fransa-Rusiya müharibəsindən təxminən 56 il keçəndən sonra üzə çıxıb”
**Əsəd Cahangir:** “Əgər Mirşahinin ”Vətən” poemasından xəbəri olsa idi, öz fikirlərini bir qədər başqa şəkildə ifadə edərdi”

**Yazıçı A.Yeniseyin fikrincə, vətənpərvərlik, qələbə mövzusunda böyük ciddi əsərlər müharibə yaralarının tamamilə sağalmasından sonra yazılır:** ”Lev Tolstoyun ”Hərb və sülh” romanı da Fransa-Rusiya müharibəsindən təxminən 56 il keçəndən sonra üzə çıxıb. Yaxud da Homerin ”Troya müharibəsi”bu müharibədən 300 il sonra yazılıb. Ona görə Vətən müharibəsi haqqında da əsərlərin yazılmasına tələsmək lazım deyil. Əslində bu mövzuda əsərlər yazılıb. Görünən odur ki, Mirşahinin onlardan xəbəri yoxdur. İkinci Qarabağ müharibəsindəki qələbədən sonra ölkəmizdə bu qələbəyə həsr olunmuş bir milyon kitab çıxıb. Təkcə Şuşa haqqında 15-dən çox kitabın təqdimatından hazırlanmış reportaja baxmışam. Onların arasında gündəmə hesablanan, ötəri emosiyaları əks etdirənlər də olub. Niyə indi bizdə ”Hərb və sülh” səviyyəsində əsərlər yazılmır?-deyə sual verənlər başa düşməlidirlər ki, bunun üçün yazıçılara, ədəbiyyatın özünə vaxt lazımdır. Hadisələrin üstündən xeyli müddət keçməlidir. Böyük ədəbiyyat nümunələri qaça-qaçla, dövlət sifarişi ilə ərsəyə gəlmir. Bu, ümummilli mövzudur. Dünyanın hər yerində bu cür mövzularda əsərlərin yazılması üçün dövlət, hansısa ictimai təşkilatlar, hətta partiyalar belə yazıçılara dəstək olur”. A.Yeniseyin qənaətincə, ümumilli mövzuların ortaya çıxmasında dövlətin, hökumətin, eləcə də, Mirşahinin özünün rəhbəri olduğu televiziya kanalının da marağı olmalıdır: ”Onlar bu mövzulara müraciət etmək istəyən yazıçıları tapıb, onların müəyyən kommunal xərclərini öhdəliyinə götürsünlər ki, həmin yazıçılar da oturub geniş zamanda əsər yazsın. Azərbaycanın bugünkü gənc yazıçısının buna zamanı yoxdur. Xalq yazçılarımız isə artıq qocalıb və tükənib, son iyirmi ildir ki, heç nə yaza bilmirlər. Onlardan yeni əsər tələb eləmək isə tamamilə reallıqdan uzaq düşüncədir”.

**Tənqidçi Əsəd Cahangir isə Mirşahin Ağayevin Azərbaycan jurnalistikasında gördüyü işləri böyük qiymətləndirdiyini, ondan da qələm əhlinə qarşı eyni münasibəti gözlədiyini deyib:** ”Bu yaxınlarda Azərbaycan Yazıçılar Birliyində Azərbaycan Elmlər Akademiyasının Dilçilik və Tarix İnstitutlarında və digər yerlərdə bizim görkəmli şairimiz Ramiz Qusarçaylının 7500 misradan ibarət ”Vətən” poemasının təqdimatı keçirilib. Orda Azərbaycan tarixi Azıx mağarasından tutmuş Qarabağ savaşına qədər özünün bədii ifadəsini tapıb. Alimlərimiz, mən də Ramiz müəllim haqqında məqalə yazmışam. AYB-də bu yaxınlarda ”Qarabağ dastanı” adlı iki hissədən ibarət kitab hazırlandı. Burda müxtəlif yazıçıların esseləri, məqalələri toplanıb. Birinci hissədə zəfərdən öncəki, ikinci hissədə isə zəfərdən sonrakı yazılar yer alıb. Bizim şairimiz Qulu Ağsəsin Qarabağ xatirələri ilə bağlı şeirlərinə İtalyada musiqi bəstələnib. Hələ sadaladıqlarım bu istiqamətdə görülən işlərin çox az bir qismidir. Əgər Mirşahinin ”Vətən” poemasından xəbəri olsa idi, öz fikirlərini bir qədər başqa şəkildə ifadə edərdi. Mirşahin ya bu faktları bilmir, ya da bilir, ciddiyə almır”.

Günəş Mərd



# Ərdoğanın hakimiyyətə gəlişi ilə vəziyyət dəyişib

## Hazırda Türkiyə-İran münasibətləri ən ideal dövrünü yaşayır

**Ötən gün İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə keçirdiyi həftəlik mətbuat konfransında Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanın İrana səfəri ilə bağlı sualı cavablandırarkən bildirib ki, Türkiyə-İran sərhədi ötən 100 il ərzində ən sabit və təhlükəsiz sərhəd olub: ”İran və Türkiyə arasında əlaqələr davamlı şəkildə inkişaf edib və edəcək”.**

XİN rəsmisi İran və Səudiyyə Ərəbistanı arasında münasibətlərin nizamlanması ilə bağlı müzakirələrdə ciddi dəyişikliyin olmadığını da əlavə edib: ”Gözləyirik ki, Səudiyyə Ərəbistanı tərəfi yeni dövr danışıqlar üçün tarix elan etsin. Tarix müəyyənləşən kimi elan olunacaq. Ümid edirik ki, Rəsmi Ər-Riyad yeni dövr danışıqlara ciddi və əməldə icra oluna biləcək qərarlarla geri dönəcək”.

**Politoloq Sədrəddin Soltan ”Şərq”ə açıqlamasında bildirib ki, Ərdoğanın idarə etdiyi partiya hakimiyyətə gəlməzdən əvvəl İran Türkiyə üçün təhlükəli ölkələr sırasına daxil edilib:** ”Çünki həmin dövrdə İran hakimiyyəti İraq ərazisində fəaliyyət göstərən terrorçu PKK-dan Türkiyə əleyhinə istifadə edib. Bu səbəbdən də rəsmi Tehran Türkiyə üçün təhlükə mənbəyi olaraq qalıb. Amma 2003-cü ildən, Ərdoğanın hakimiyyətə gəlişindən sonra həm dünyada baş verən, həm də İran hakimiyyətinin Türkiyəyə münasibətində dəyişiklik hər iki ölkə arasındakı əlaqələrə də təsir göstərib. İlk növbədə, İran Türkiyədə pozuculuq fəaliyyəti ilə məşğul olan, rəsmi Ankaraya qarşı çalışan terrorçu qrupları, o cümlədən də PKK-nı dəstəkləməkdən əl çəkib. Türkiyə rəsmi Tehranın atom nüvə proqramını dəstəkləyib və ölkədə İranın nüvə proqramına dair konfransın keçirilməsinə nail olub. Yeni Türkiyənin beynəlxalq arenada davamlı olaraq İranı dəstəkləməsi Tehranda Ankaraya olan etimadı artırıb. Bundan sonrakı mərhələlərdə də zaman-zaman İran Türkiyəyə qarşı addımlar atıb. Hətta Ərdoğanın vaxtında belə Türkiyəyə ixrac olunan qaz nəqlini dayandırıb, təbii qazın qiymətində doğru olmayan qərarlar verib. Suriyadakı vəziyyətlə bağlı Türkiyə ilə İran arasında çox kəskin fikir ayrılığı var idi. Suriyadakı rejimin başçısı Bəşər Əsədi İran tərəfi dəstəkləyir, Türkiyə isə xalqının qanını içən rejim başçısı kimi tanıyır. Yaxud da İraqdakı bir sıra məsələlərlə bağlı Türkiyə ilə İran arasında fərqli münasibət var. Eləcə də Azərbaycanın Ermənistanla apardığı 44 günlük müharibə gedişində Türkiyə ilə İran arasında ölkəmizin dəstəklənməsinə çox fərqli münasibət var idi. Bildiyimiz kimi, İran tərəfi hesab edirdi ki, guya, Azərbaycan tərəfdən döyüşənlər terrorçulardır. Onları bölgəyə gətirən qardaş ölkədir. Türkiyəni bu tip məsələlərdə ittiham edib. Sonrakı dövrlərdə İran tərəfi bu yersiz iddialarını dayandırıb. Problemləri çözməyə başlayıblar. Hazırda tərəflər arasında ciddi mübahisə yarada biləcək məsələ yoxdur. Ona görə də İran XİN sözçüsü bu bəyanatı verib”.

Sücayət Mehti

# QMİ hələ elan verməyib

## Həcc ziyarətinə təxminən 2 ay yarım vaxt qalır



**Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi koronavirus pandemiyası başlayandan bəri ilk dəfə olaraq xaricdən gələn zəvvarlara bu il Həcc ziyarətinə icazə verib və Məkkə ilə Mədinənin müqəddəs yerlərini ziyarət etməyə icazə verilən zəvvarların sayını bir milyona çatdırıb.**

Bu barədə Səudiyyə Ərəbistanının Xəbər Agentliyi adıçəkilən nazirliyə istinadən məlumat yayıb. Məlumatda qeyd edilir ki, bu il həm krallıqdan, həm də xaricdən bir milyona qədər zəvvarın Həcc ziyarətinə icazə verilməsi qərarı müsəlmanların Həcc və Ümrə ayinlərinin icrasını yerinə yetirmələri, Peyğəmbər məscidi və digər müqəddəs yerləri ziyarət edə bilmələri və bununla da Həccin davamlılığını təşviq etmək məqsədi daşıyır. Koronavirusa qarşı SƏ-də rəsmi təsdiqlənmiş vaksinlərlə tam peyvənd olunmuş, yaşı 65-dən aşağı olan şəxslər Həcc ziyarətinə gələ biləcəklər. Onlardan krallıq ərazisinə daxil olmazdan əvvəl 72 saat ərzində aparılmış PCR testinin mənfi nəticəsini təsdiq edən sənəd tələb olunacaq.

***"Bu qısa müddətdə Həcc ziyarətinə hazırlıq görmək çox çətindir. Həcc ziyarətinin təşkili heç olmasa 6 ay əvvəldən elan edilməlidir ki, hazırlıqlar üçün yetəri qədər vaxt olsun"***

**Məlumatla bağlı "Şərq"ə danışan islamşünas, Heydər məscidinin imamı Ağa Səid Yaqubov Qafqaz Müsəlmanları İdarəsinin Həcc ziyarətiylə əlaqədar rəsmi açıqlamasının olmadığını dedi:**

- QMİ-nin bununla bağlı hələ ki, rəsmi açıqlaması yoxdur. Azərbaycanda Həcc missiyasının rəhbəri QMİ olduğundan Həcc ziyarətinə sənəd qəbulunu da bu idarə elan etməlidir. Həcc ziyarətinə təxminən 2 ay yarım vaxt qalır. Bu qısa müddətdə Həcc ziyarətinə hazırlıq görmək çox çətindir. Həcc ziyarətinin təşkili heç olmasa 6 ay əvvəldən elan edilməlidir ki, hazırlıqlar üçün yetəri qədər vaxt olsun. Çünki Həcc ziyarəti toplu bir mərasimdir, Ümrə ziyarətindən fərqli olaraq Həcc ziyarətində qat-qat artıq zəvvar iştirak edir. Hazırlıqlar da uzun vaxt aparır. Bunun əvvəlcədən otellərdə, mehmanxanalarda yerlərin kirayələnməsi, təyyarə reyslərinin müəyyənləşməsi, avia-şirkətlərlə müqavilə bağlanması kimi uzun sürən hazırlıq prosesi var. 3 ayda bütün bu tədarükləri görmək çətindir. Yenə də qərar QMİ-nindir. Bəlkə az sayda zəvvar aparılacaq, hazırlıqlar da tez başa gələcək. Yaxın zamanda QMİ-nin də bir qərarı olar yəqin. Amma hesab edirəm ki, Səudiyyə Ərəbistanı Həcc və Ümrə Nazirliyi bu qərarını daha əvvəlcədən elan etməliydi.

*A.S.Yaqubov qeyd etdi ki, ötən ay Azərbaycandan Ümrə ziyarətinə gedənlər olub. Kiçik qruplar təşkil edilib və zəvvarlar yola salınıb. Mümkün olacağı təqdirdə azərbaycanlı zəvvarlar Həcc ziyarətində də iştirak edəcəklər.*

**Məlahət**

# Azercell-dən özəl Ramazan kampaniyasında 2GB hədiyyə!




**Ölkənin lider mobil operatoru "Azercell Telekom"un müqəddəs Ramazan ayı münasibətilə öz abunəçilərinə xüsusi hədiyyəsi var.**

Bu bayram ayında hər kəsə xoş ovqat bəxş etmək məqsədilə Azercell özəl Ramazan kampaniyası iştirakçılarına 2GB həcmində internet paketlərini hədiyyə edir. Kampaniyanın şərtlərinə əsasən, 9 aprel - 2 may 2022-ci il tarixlərində Azercell fakturasız xətt (SimSim) sistemindən istifadə edən abunəçilərə Ramazan ayının ruhuna uyğun olaraq imsak vaxtında istifadəüçün 2GB internet paketi təqdim olunur. Hədiyyə paketini əldə etmək üçün fakturasız xətt abunəçiləriAylıq İnternet paketlərindən birinə (500MB, 1GB, 5GB, 10GB, 30GB, 50GB), yaxud "Sərbəst" tariflərindən birinə və ya GəncOL 6/9 tariflərindən birinə qoşulmalıdır.Təqdim olunan paketdən 2 may tarixinə qədər 02:00 -06:00 saatları arasında istifadə etmək mümkündür. Kampaniya haqqında daha ətraflı məlumatı "Azercell Telekom" MMC-nin rəsmi veb-səhifəsindən əldə etmək mümkündür:https://bit.ly/ramazan-campaign-az

Hər zaman abunəçilərinə xüsusibayram hədiyyələri təqdim edən Azercell şirkəti Ramazan ayı münasibətilə hər kəsi təbrik edir.

### Elan

Rüstəmov Sərdar Ağalar oğluna (fiziki şəxs) (VÖEN № 1500582642) məxsus 072994 nömrəli lisenziya, FHN/ 38-00673 qeydiyyat nömrəsi 17.05.2012-ci il tarixli lisenziya itdiyi üçün etibarsız sayılır.

Kopla MMC, Nokun MMC, Umano MMC, Divac-96 MMC, Azinel MMC-yə məxsus möhürlər itdiyi üçün etibarsız sayılır.

# Erkən nikahların qarşısını almaq müşkülə çevrilib

## Problem daha çox cahilliklə bağlıdır, amma cəzasızlıq amili də mühüm faktordur

**Ötən illərlə müqayisədə Azərbaycanda erkən yaşda ana olanların sayında nisbətən azalma müşahidə edilsə də, problemi kökündən həll etmək müşkülə çevrilib.**



Əfsus ki, hələ də ölkə ərazisində erkən yaşda evləndirilən qızlarımız çoxdur. Ən pisi də daha yeniyetməlik çağında olan qızların toydan sonra ana olmasıdır. Hansı ki, yetkinlik yaşına çatmayan qızların nikaha daxil olması qanunla qadağandır, nəinki onların uşaq yaşda övlad sahibi olması. Amma təəssüf ki, bəzən mentalitet və dədə-babadan qalan stereotiplər bütün qanunların önünə keçir və insanları öz ağuşuna alaraq uçuruma yuvarlayır.

Qeyd edək ki, iki gündür ölkə gündəminin əsas müzakirə mövzusu Gəncədə 16 yaşlı qızın ana olması faktıdır. Gəncə Birləşmiş Xəstəxanası Publik Hüquqi Şəxsin Gəncə Perinatal Mərkəzinin baş həkimi Sevda Hüseynovanın məlumatına görə, 40 həftəlik hamiləlik diaqnozu ilə mərkəzə daxil olan zaman onun üzərində şəxsiyyət vəsiqəsi olmadığı üçün özünü 2003-cü il təvəllüdlü şəxs kimi qeydiyyatdan keçirib: "Xəstənin vəziyyəti ağır olduğundan təcili olaraq cərrahiyə əməliyyatına götürülüb. Daha sonra xəstənin məlumatları kompüterə daxil edilən zaman onun 2006-cı il təvəllüdlü olduğu məlum olub. Üstəlik, sözügedən şəxs 2020-ci ildə 14 yaşı olan zamanı ailə həyatı qurub.

Xəstəxanaya daxil olan zaman o, bilərəkdən təvəllüdünü gizlədib. Məsələ aydınlaşandan dərhal sonra faktla bağlı hüquq-mühafizə orqanlarına məlumat verilib". Qeyd edək ki, ölkədə azyaşlı qızların erkən və ana olmasına dair faktlar ictimaiyyət üzvləri tərəfindən də xoşagəlməz hal kimi dəyərləndirilir. Amma çox təəssüf ki, şiddətlə qınansa da erkən nikah və yetkinlik yaşına çatmayan qızların ana olması faktları hələ də qeydə alınır. Hadisə baş verən ərazilərdə olan insanlar və qurumlar, müvafiq dövlət orqanları bəlkə də bunu görür və bilirlər. Amma özlərini görməzliyə vururlar. Çünki onlar üçün, bu cəmiyyət üçün zərərsiz, hətta xoş bir hadisədir. Halbuki, ginekoloqlar erkən yaşda ana olmağın ölüm riski yaratdığını deyir. Məhz bu kimi hallar ana və uşaq ölümlərinin sayını artırır, yeniyetmələrdə reproduktiv sağlamlıqla bağlı problemlər ortaya çıxarır. Gələcək nəsillərin sağlamlıq vəziyyəti yeniyetmə qızların - gələcək anaların sağlamlıq vəziyyətlərindən birbaşa asılıdır. Mütəxəssislərin fikrincə, yeniyetmənin orqanizmi inkişafda olan orqanizm olduğundan hamiləlik və doğuş zamanı bir çox xroniki xəstəliklərin kəskinləşmə riski artır: "Erkən nikahların və erkən hamiləliyin yalnız ana və körpə üçün deyil, cəmiyyət üçün də mənfi fəsadları ola bilər. Belə ki, təhsilsiz və nikahsız gənc ananın problemi təkcə onun cəmiyyətin inkişafı üçün töhfə vermək imkanından məhrum olması ilə bitmir, o hətta ailəsi ilə birlikdə bu cəmiyyətdə artıq yükə çevrilə bilər".

**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə isə hər zamankı kimi maarifləmə amilini xüsusi qeyd edib. Onun sözlərinə görə, bütün bu problemlərin altında cahillik dayanır və təbii ki, cəzasızlıq amili də mühüm faktordur**: Hüquq-mühafizə orqanları və vətəndaşlar bu məsələdə birlik olmalıdır. Sizi əmin edirəm, bir-iki nəfər cəzalandırılsa zamanla bu problemin həllinə nail ola bilərik. 18 yaşına çatmayan uşağı evlənməyə məcbur edənlər Azərbaycan qanunvericiliyinə hörmət etmir. "Uşaq hüquqları haqqında" qanuna hörmət eləmir. Buna heç cür haqq qazandırmaq olmaz. Bu uşaqların özlərinin anaya, qayğıya eytiyacı var. Onlar necə uşaq dünyaya gətirə bilərlər? Sadəcə, bu uşaqlar valideyn məsuliyyətsizliyinin qurbanıdırlar. Ona görə də belə məsuliyyətsiz valideynlər cəzasız qalmamalıdırlar".

Erkən nikahların qarşısının alınmasında ailə tərbiyəsinin çox mühüm olduğunu vurğulayan K.Ağazadənin sözlərinə görə, analarımız qızlarına oxumağı, öz ayaqları üzərində durmağı aşılamalıdır. Bəzi ailələrdə isə əksinə, daha çox yeni doğulandan "sənə cehiz almışam", "sən ərə gedəndə belə olacaq" və s. kimi fikirlərlə uşağın şüurunu çox kiçik yaşlardan evliliyə yönəldirlər.

**Şəymən**

Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

# Regionlardan Bakıya kütləvi axının qarşısını almaq olar

## "İqtisadi fürsətlər regionlarda çox olmalıdır ki, əhalinin də öz yaşadığı bölgələrdən köç etməsi ehtimalı azalsın"

**Son zamanlar əhalinin regionlardan Bakıya kütləvi sürətdə axını uzun müddətdir, müzakirə predimetinə çevrilib. Coğrafiya İnstitutunun təşkilatçılığı ilə İsmayıllı rayonunun Talıstan kəndində "COVİD-19, miqrasiya və media" mövzusunda tədbir keçirilib. Tədbirdə AMEA Coğrafiya İnstitutunun əməkdaşları, İsmayıllı şəhəri və onun 10-dan artıq kəndindən olan sakinlər, kənd icra və bələdiyyə nümayəndələri iştirak edib.**

Tədbir Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru bildirib ki, bəzi kəndlər var ki, əhalisi barmaqla sayıla biləcək qədərdir. Rayonda hətta bir neçə ailənin yaşadığı dağ kəndləri var. İnsanların miqrasiya etməsinin əsas səbəblərindən biri iqlim dəyişmələri və əlaqədar təbii proseslərdir. Yağıntıların illik rejimi dəyişir, quraqlıq dövrü uzanır, su qıtlığı baş verir, sel, sürüşmə kimi təbii fəlakətlərin baş verməsi riski artır, meşələr quruyur, torpaqlar deqradasiyaya məruz qalır və s. Bir-biri ilə bağlı olan bu əlverişsiz proseslər insanların yaşayışına, məişətinə mənfi təsir göstərir. Son dövrlər yağıntının azalması aydın hiss edilməkdədir. Çaylarda su qıtlığı müşahidə olunur. Bu səbəblərdən kənd təsərrüfatı ilə məşğul olan insanlar istədikləri kimi gəlir götürə bilmirlər.

İsmayıllı rayonunun Burovdal kənd sakini Ağamir Ağayev rayonun bəzi kəndlərin inkişafına mane olan səbəblərdən biri kimi Girdiman çayının üzərində körpünün olmamasını qeyd edib: "Bir neçə ildir ki, körpünün layihəsi Nazirlər Kabineti tərəfindən təsdiqlənsə də, körpü hələ də tikilməyib. Körpünün olmaması bu çayın ətrafında yaşayan əhalinin rayon mərkəzi və digər bölgələrlə əlaqəsini kəsir, kəndə gediş-gəlişi çətinləşdirir. Bu səbəbdən çayın hövzəsində məskunlaşan kənd əhalisi köçməyə məcbur olur. Hazırda rayonun bir çox kəndlərindən Bakı şəhərinə köçən əhali bələdiyyələrə körpü salınmasından sonra öz ata ocaqlarına köçəcəklərini deyirlər. Burdan köçən insanların əksəriyyəti Bakıda günlük 15-20 manata fəhlə işləyir. Lakin onlar qayıdıb öz kəndlərində əkinçiliklə məşğul olsa, daha çox qazanar. Bu gün İsmayıllı rayonun Burovdal kəndi ən çox köç müşahidə olunan kəndlərdən biridir".

İsmayılı şəhər icra nümayəndəsi Əlişir Süleymanov söyləyib ki, İsmayıllı rayonun Tubikənd yaşayış məntəqəsindən ermənilər köçüb getdikdən sonra kənddə Axıska türklərinin sayı çoxalmağa başladı. Eyni zamanda, Qoşakənddə 38 ailədən ibarət Axısqa türkləri məskunlaşıb: "Rayonda işlə təmin oluna bilmədikləri üçün burada məskunlaşan Axısqa türkləri Türkiyəyə köçür.




Qeyd edək ki, ölkəmizdə regionların inkişafı ilə bağlı Dövlət Proqramı imzalanıb. Buna əsasən, regionların sosial-iqtisadi həyatı inkişaf etdirilməli, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməli və sahibkarlıq mühiti daha da yaxşılaşdırılmalı idi. Lakin verilən bu vədlər yerini tapmadığından insanlar rayonlardan şəhərə üz tumağa davam edir.

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə bildirib ki, müstəqillikdən bəri regionlardan böyük şəhərlərə, əsasən də Bakı və Abşeron yarımadasına axın sürətlənib:** "Bunun bir çox səbəbi var idi. Əsas səbəblərdən biri iş yerləri və sosial infrastrukla bağlı problemlər idi. İşıq, qaz, su kimi problemlər, işsizlik və Bakıda da tikinti işlərinin olması regionlardan şəhərə axının güclənməsinə səbəb oldu. Bu tendensiya səngisə də, eyni trend uzun illərdir davam edir. Çünki regionlarda iş yerlərinin az olması, sosial həyatın cəlbedici olmaması Bakını və Abşeronu daha cəlbedici hala gətirir".

*Ekspert bu kimi halların çıxış yollarını da sadalayıb. O, qeyd edib ki, iqtisadi fürsətlər regionlarda çox olmalıdır ki, əhalinin də öz yaşadığı bölgələrdən köç etməsi ehtimalı azalsın:* "Bu illərdir dediyimiz eyni məsələlərdir. Regionlarda iqtisadi fürsətlər artırılmalıdır, yeni iş yerlərinin yaranması üçün proqramlara, kiçik-orta sahibkarlığa, fermerlərə daha çox dəstək göstərilməsinə, onlara uzun müddətli və aşağı faizli kreditlərə çıxış imkanlarının əldə edilməsinə ehtiyac var. Bütün bu problemlər həllini tapsa, regionlarda həm həyat səviyyəsinin yüksəlməsi, sosial həyatın rəngarəng olması, iş yerlərinin yaranması, iqtisadi fürsətlərin artması və Bakının da yükünün azalmasına yol aça bilər".

**Çimnaz Şahlar**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1021



## Bakıda klassik avtomobillərin yürüşü keçiriləcək

**Azərbaycan Avtomobil Federasiyası (AAF) mayın 29-da klassik avtomobillərin yürüşünü keçirəcək. Heydər Əliyev Mərkəzinin qarşısından start götürəcək avtomobillər Bakı şəhəri üzrə yürüş edəcəklər.**

Bununla əlaqədar olaraq, AAF klassik avtomobil sahiblərini və avtomobil həvəskarlarını tədbirdə iştiraka dəvət edir. 1982-ci ilədək istehsal olunan klassik avtomobil sahibləri 23 may saat 18:00-dək Avtomobil Federasiyasında qeydiyyatdan keçə bilər.

Qeydiyyat üçün əlaqə: (012) 505 60 03 və ya (050) 295 01 00, imeyl: info@faa.az

Qeydiyyatdan keçən avtomobil və sahibləri 29 may tarixində saat 15:30-da Heydər Əliyev Mərkəzinin qarşısında olmalıdır.

## “Şaxtyor" "Olimpiakos" oyunu

Tribunadakı oturacaqlara 177 oyuncaq qoyuldu



**Ukraynanın "Şaxtyor" klubu ilə Yunanıstan "Olimpiakos"u arasında baş tutan xeyriyyə oyununda tribunadakı oturacaqlara 177 uşaq oyuncağı düzülüb.**

Oxu.az xəbər verir ki, bununla da oyunun təşkilatçıları Rusiya ordusunun hərbi əməliyyatları nəticəsində həyatlarını itirmiş uşaqların xatirəsini anıblar.

Qeyd edək ki, oyun qonaq "Şaxtyor" klubunun 0:1 hesablı qələbəsi ilə bitib.

Matçdan əldə edilən bütün gəlir ukraynalılara humanitar yardım üçün köçürüləcək.

## Gündə 6 saatdan az yatmaq şəkər xəstəliyi yaradır



**Sutkada 6 saatdan, həftəyə 40 saatdan az yuxu yatmaq şəkərli duabet xəstəliyini təkanlayır. Yuxusuzluq diabet riski yaradır. Xəstələrdə yuxusuzluğun müalicəsi aparılsa, diabet riski aradan qalxar, hətta şəkər sağalar.**

**Bakupost.az xəbər verir ki, bu qənaətə Harvard Universitetinin alimlər qrupu gəlib.**

**Onlar 383 min Avrpopalının yuxu göstəricilərini toplayıb analiz ediblər. Bura 5 kriteriya daxil idi: çətin yuxuya getmək, gecəyarı ayılmaq, yuxusuzluq, gündüz yuxusu, gecə yuxusu, həftəlik norma. Analizlər göstərib ki, gecə çətinliklə yuxuya gedənlərdə, yuxusuzluqdan əziyyət çəkənlərdə, hər gün səbəbsiz olaraq gecəyarı yuxudan oyananlarda qanda şəkərin səviyyəsi artıb. Asan yuxuya gedənlərdə, gecəboyu oyanmayanlarda, səhər vaxtında oyananlarda şəkərlə bağlı yüksəlmə qeydə alınmayıb. Alimlər hesab edir ki, yuxuya gedə bilməyənlərin gələcəkdə şəkər xəstəsi olmalarının qarşısını almaq üçün yuxu keyfiyyətini yaxşılaşdıran dərmanlar təyin edilməlidir. Yuxu terapiyası qanda şəkəri effektiv salır.**

## İki aylıq sevgilisindən ayrıldı



**"Yasak Elma" serialındakı Kumru obrazı ilə populyarlaşan Biran Damla Yılmazın musiqiçi Çağrı Telkıvıran ilə münasibəti bitib.**

**Olay xəbər verir ki, sənətçinin təxminən iki ay əvvəl sevgili olduğu Telkıvıran ilə yolları tez ayrılıb.**

***Qeyd edək ki, Çağrı Biranla eyni yarışmada iştirak edən Aslı Bekiroğlunun da keçmiş sevgilisidir.***

## “Ericsson" Rusiyada fəaliyyətini dayandırdı



**İsveçin telekommunikasiya avadanlığı istehsalçısı "Ericsson" Rusiyadakı fəaliyyətini qeyri-müəyyən müddətə dayandırır.**

**Bu barədə şirkətin internet saytındakı açıqlamasında deyilir. "Son hadisələr və Avropa İttifaqının sanksiyaları fonunda şirkət Rusiyadakı müştəriləri ilə fəaliyyətini qeyri-müəyyən müddətə dayandıracaq", - deyə bəyanatda deyilir. Mətbuat xidməti qeyd edib ki, aktivlərin qiymətdən düşməsi və digər müstəsna xərclər halında "Ericsson" 0,9 milyard İsveç kronu (161,5 milyon manat) məbləğində ehtiyat hesabı açacaq, "Ericsson"un Rusiyadakı ofisinin əməkdaşları isə ödənişli məzuniyyətə göndəriləcək.**



# Xəstə də, həkim də azərbaycanlı



## Amma Türkiyədə qarşılaşdılar

**69 yaşlı Gülarə Fətullayeva əllərindəki titrəmələrdən uzun müddət əziyyət çəkib, müalicə olunub, dava-dərman qəbul edib. Lakin xeyri olmayıb. Əllərindəki titrəmə həyatını kabusa çevirib. Nəhayət Türkiyəyə gedib və dərdinə çarə tapıb.**

Həm də azərbaycanlı həkimin müalicəsiylə. Ölkədə 10 il aldığın müalicələr effekt verməyə, açmadığın həkim qapısı qalmaya, sonunda çarəni Vətəndən kənardakı həmyerlindən tapasan. Gülarə Fətullayevanın qəribə taleyini "Şərq" "Milliyet.com"a istinadən təqdim edir. G.Fətullayeva xəstəlik tarixçəsini danışıb: "Əllərim titrəyir deyə, bir iş görə bilmirdim. Əlim bir şey alsam, yerə salacam deyə, qorxurdum. Yemək hazırlaya bilmirdim, ev işləri görə bilmirdim. Gecələr yata bilmirdim. Ağrılarım başlayırdı. Yataqda dönə bilmirdim, ayağa qalxanda qorxurdum ki, birdən yıxılaram. Buna görə evdən bayıra da çıxmırdım. 10 il getmədiyim həkim, içmədiyim dərman qalmadı. Amma bir faydası olmadı. Mənə Türkiyəyə getməyi məsləhət gördülər. Bura gəldim. Burda "idiopatik parkinson" diaqnozu qoyuldu. Burda nevroloq həkim Nihat Mustafayev məni müalicə etdi. Bildim ki, həkim azərbaycanlıdır. Əl titrəmələri, ağrılarım demək olar yoxdur", söyləyən G.Fətullayeva normal həyata döndüyünü deyib. Həkim N.Mustafayev isə bildirib ki, Parkinson xəstəliyi özünü büruzə verməzdən əvvəl əlamətləri başlayır. Bu ərəfədə insanda qəbizlik, yuxu pozuntusu, yuxudaykən qışqırmaq, qorxu hissi, qol və ayaqlarda nizamsız hərəkətlər yarana bilər. Belə insanlarda Parkinson xəstəliyinə tutulma təhlükəsi yüksəkdir. Əlamətlər özünü göstərdikdə, müayinə olunmaq lazımdır. Əgər Parkinson əlamətləri müəyyənləşərsə, dərhal müalicəyə başlanmalıdır. Erkən müalicənin təsiri daha qüvvətli olur. Digər mərhələlərdə də diaqnoz düzgün qoyulduqda Parkinson xəstəliyini müalicə etmək mümkün olur. Parkinson müalicəyə tabe olan xəstəlikdir. Dərman preparatları, fizioterapiya ilə ağırlaşmanın qarşısını almaq olur, xəstə normal həyat şərtləri altında yaşaya bilir. Bu xəstəliyə 60 yaşdan yuxarı insanlarda daha çox rast gəlinir. Ancaq genetik səbəblərlə 40 yaçdan sonra da yarana bilər. Hər titrəmə Parkinson xəstəliyi deyil. Bu xəstəlikdə titrəmələr bədən istirahət halındaykən baş verir.

**Məlahət Rzayeva**



# "Heç nə Vətənimizdən artıq deyil!"

Rus fenomenlər “Chanel” çantalarını doğradı

**Məşhur fransız markası "Chanel" rus müştərilərinə məhsullardan Rusiyada istifadə etməyəcəklərinə dair sənəd imzalamalarını tələb edib. "Milliyet.com.tr" yazır ki, bu barədə "New York Times" məlumat yayıb.**

Rusiyanın sosial media fenomenləri isə "Chanel"in tələbini etirazla qarşılayıb. Və etirazlarını minlərlə dollarlıq "Chanel" çantalarını qayçı ilə doğramaqla ifadə ediblər. Əllərində qayçı bahalı marka çantalarını nümayişkarənə şəkildə doğram-doğram etdiklərini videoya çəkib paylaşan rus gözəllər paylaşıma "Heç nə Vətənimizdən artıq deyil!" sözlərini əlavə edib. Teleaparıcı Marina Yermoşkina Dubayda "Chanel" mağazasına daxil olan rus müştəriyə yuxarıda xatırlatdığımız tələbi irəli sürüb. Bununla da "Chanel"ə qarşı "rus etirazı" başlayıb. M.Yermoşkina "bu artıq ruso-fobi və irqçilikdir", deyərək "Chanel" çantasını qayçı ilə ortadan doğrayıb. Rusiya televiziyalarında da yayımlanan video yüz minlər tərəfindən baxılıb. 9.3 milyon təqibçisi olan sosial media fenomeni Viktoriya Bonya da minlərlə dollarlıq "Chanel" çantasını bağ qayçısıyla doğrayaraq: "Chanel" müştərilərinə saygı duymursa, biz niyə saygı duymalıyıq?!" deyib. "Chanel" şirkəti isə etirazlara belə cavab verib: "bu yasaqları biz deyil, Avropa Birliyi tətbiq edir". Şirkət məlum tələbin qiyməti 300 avrodan yüksək mallara tətbiq edildiyini açıqlayıb. Etirazlar isə bitmir. Digər sosial media fenomenləri də etirazlara qoşularaq "Chanel" məhsullarını boykot edəcəklərini, digər geyim və əşyaları isə satışa çıxaracaqlarını, əldə edilən gəliri isə Donbas bölgəsinə maddi yardım olaraq göndərəcəklərini bildiriblər. Rus dc. Katya Quseva da instagramda artıq "Chanel" çantalarına ehtiyac duymadığını yazıb: "Chanel" olmadan da mükəmməl bir şəkildə həyatımıza davam edirik".

**Məlahət**

## Mahsun həyat yoldaşından boşandı

6 illik evlilik 15 dəqiqədə bitib



**Mahsun Kırmızıgüllə həyat yoldaşı Ece Binayın 6 illik evliliyi 15 dəqiqədə bitib.**

Olay xəbər verir ki, sənətçi bu barədə özü açıqlama verib: "Bütün cəhdlərimə rəğmən evliliyimizi qurtara bilmədik, fikir ayrılıqları nəticəsində ayrılmağa qərar verdik". Xəyanət iddiaları barədə suallara cavab verməyən Eve Binay isə "Məhkəməyə müraciət etmişdim və boşandıq", - deyə, bildirib.

*Qeyd edək ki, cütlüyün Lavin adında bir qızı var.*

## 2030-cu ildə Ramazan ayı iki dəfə qeyd ediləcək



**Səudiyyəli astronom Xalid əl-Zaqaqın sözlərinə görə, müsəlmanlar 2030-cu ildə bir ildə iki dəfə müqəddəs Ramazan ayının gəlişini qeyd edəcəklər.**

Bunun səbəbi İslam Hicri təqviminin ay dövrlərinə, Miladi təqvimin isə Yerin Günəş ətrafında dövr etməsi siklinə əsaslanmasıdır.

Azərtac bildirir ki, astronom tviter hesabında yerləşdirdiyi videoda bunu izah edib; iki təqvim arasındakı fərq Milad təqvimində Ramazan ayının hər 30 ildə bir dəfə təkrar olunacağını göstərir. Bu, sonuncu dəfə 1997-ci ildə, ondan əvvəl isə 1965-ci ildə baş verib. Beləliklə, Hicri 1451-ci ildə Ramazan ayı Miladi təqvimlə 2030-cu il yanvarın 5-də başlayacaq, həmin il dekabrın 26-da müsəlmanlar yenidən müqəddəs ayın gəlişini qeyd edəcəklər. Bu, müsəlmanların 2030-cu ildə təxminən 36 gün - Hicri 1451-ci il üçün 30 gündən ibarət tam ay və 1452-ci il üçün təxminən altı gün oruc tutması ilə nəticələnəcək.

Astronom bildirib ki, Hicri qəməri ili 354 və ya 355 gün davam edir, yeni 365 gün olan Miladi təqvimlə dəqiq uyğun gəlmir. Bu, həm də o deməkdir ki, Ramazan hər il müxtəlif fəsillərə düşür və təqribən 32 illik dövrələrlə davam edir.

## 8 dil bilir, amma...

Xalça yumağa üstünlük verir



**ABŞ vətəndaşı Voqn Smit 8 dildə sərbəst danışır.**

Lent.az xəbər verir ki, bu faktı "Washington Post" qəzeti üzə çıxarıb.

Jurnalistin "neçə dil bilirsiniz?" sualına Smit belə cavab verib: "8 dildə sərbəst danışıram - ingilis, ispan, bolqar, çex, portəgiz, rumın, rus və slovak dillərində".

Bundan əlavə, Smit 25 ayrı dildə də fikrini ifadə edə bilir. Bu dillərin arasında monqol, Çin, yapon və vyetnam dilləri kimi çətin dillər də yer alır. O, hazırda rus və latış dilləri üzərində də çalışır.

Orta təhsilli kişinin bu qədər dil bilməsinin səbəbini Massaçusets Universiteti tapıb. Rentgen müayinəsi zamanı məlum olub ki, Smitin beyninin dil qavramaq üçün lazım olan hissəsi digər bölmələrdən daha böyükdür. Smit beynin bu hissəsindən daha dəal şəkildə istifadə edir.

Jurnalist bir məsələ ilə bağlı da təəssüf hissi keçirir. O, bu qədər dil bilən şəxsin niyə xalçayuyan işlədiyni, başqa iş tapmadığını soruşur.